QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 001 (5721) **4 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 2019-cu ilə - böyük zəfərlərə, ardıcıl uğurlara doğru

*İlham Əliyev: "Heç bir beynəlxalq layihənin reallaşması Azərbaycanın iştirakı olmadan mümkün deyil"*

Səh 4



Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışı olub



2

"Müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edərək daha da qüdrətlənir"



3

Baş nazirin müavini məcburi köçkünlərə baş çəkib



5

"2018-ci il Azərbaycan tarixinə növbəti uğurlu il kimi daxil oldu"



5

20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib



6

Bəhruz Quliyev: "2019-cu il bizə daha böyük ümidlər verir"



5

6

Jurnalist Camal Qaşıqçının qətli barədə iş üzrə məhkəmənin ilk iclası keçirilib



9

Azərbaycana yaz fəsli martın 21-də gələcək



12

Erməni alim "qan ağlayır"



# Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışı olub






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verdi. Binanın tikintisinə ötən ilin mayında başlanılıb. Müasir səviyyədə və yüksək zövqlə inşa olunan ikimərtəbəli binanın həyətində avtomobillər üçün parkinq yeri yaradılıb, abadlıq və yaşıllıq işləri görülüb.

Daha sonra Dövlətimizin başçısı Əmlak Xidmətləri Məkanının rəmzi açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısına komitə tərəfindən elektronlaşdırılan xidmətlər barədə məlumat verildi. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və e-Hökumət portalı vasitəsilə təqdim edir. Daşınmaz əmlakın qeydiyyatı üzrə ödənilən xidmət haqqının və dövlət rüsumunun öyrənilməsi ilə bağlı vətəndaşlar üçün daha çox maraq doğuran "Əmlak kalkulyatoru" iş prinsipləri və "Elektron çıxarışın yoxlanılması" kimi elektron xidmətlər nümayiş olundu. "Elektron çıxarış" xidməti vətəndaş məmur ünsiyyətini tam məhdudlaşdırır. Belə ki, elektron imzaya sahib vətəndaş istənilən yerdən e-Hökumət portalı vasitəsilə xidmətə müraciət edir, müvafiq sənədlərini göndərir, Komitə tərəfindən hazırlanmış elektron çıxarış isə onun portaldakı şəxsi kabinetinə göndərilir. Vətəndaş digər dövlət orqanlarına müraciət zamanı elektron çıxarışının düzgünlüyünü yoxlamaq üçün "Elektron çıxarışın yoxlanılması" xidmətindən istifadə edir. Qısa müddət keçməsinə baxmayaraq, artıq 8 mindən çox "Elektron çıxarış" sahibi var.

Binada elektron informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məkanda xidmətlərin daha dəqiq, prosedurların sürətli olması üçün elektron idarəetmə sistemini həyata keçirən qurğular quraşdırılıb. Vətəndaşlar elektron monitorlara daxil olmaqla xidmətlərdən internet vasitəsilə də istifadə edə bilirlər.

Özəlləşdirmə hərraclarının keçirilməsi ilə bağlı 100 nəfərlik hərrac zalında monitorlar vasitəsilə özəlləşməyə çıxarılan əmlaklarla tanışlıq, keçirilən özəlləşdirmə hərraclarında həm canlı iştirak etmək, həm də elektron qoşulmaqla hərraca qatılmaq imkanları yaradılıb. Özəlləşmənin elektronlaşdırılması prosesin sürətlənməsinə və investorların marağının artmasına imkan verib. Elektron hərracda elektron imzası olan hər bir vətəndaş yerindən asılı olmayaraq elektron hərrac sisteminə qoşularaq iştirak edə bilər. İndiyədək 28 elektron hərrac keçirilib və 900-dən çox əmlak satışı üzrə elektron sifariş qəbul olunub.

Burada gün ərzində 1000-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə torpaqların idarə edilməsində istifadə olunan Peyk Müşahidə Sistemi layihəsinin iş prinsipi barədə məlumat verilib. Prezident İlham Əliyev daha sonra kollektivə uğurlar arzulayıb.

# "Azərbaycanda müxtəlif dinlərin və millətlərin nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayır"

*Prezident İlham Əliyev Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik edib*



***Prezident İlham Əliyev müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün pravoslav xristianlarını təbrik edib. Təbrikdə müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikasının yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malik olduğu bildirilir. Vurğulanır ki, tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır.***

"Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir", - deyə dövlətimizin başçısı təbrikdə bildirir.

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramının yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirdiyini vurğulayan dövlətimizin başçısı təbriki bu sözlərlə bitirir: "Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram".

# "Azərbaycan ərazi bütövlüyü ilə bağlı çox ciddi addımlar atıb"

***"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində haqlı olaraq bildirdi ki, 2018-ci ildə Azərbaycan Dağlıq Qarabağ münaqişənin həlli işində çox ciddi mövqelərə malik olub. Cənab Prezidentin dediklərində böyük bir həqiqət var". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.***

Deputatın sözlərinə görə, ilk növbədə Azərbaycan danışıqlar prosesində problemin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən qoşunlarının çıxarması məsələsi olduğunu bir daha qətiyyətlə müdafiə etdi: "Ermənistanın yeni rəhbərliyi problemin qoyuluşunu əsas məzmundan uzaqlaşdırmağa çalışsa da, bu, alınmadı. İkincisi, beynəlxalq təşkilatlarda Azərbaycanın bir daha ərazi bütövlüyü təsdiq edildi. Ermənistanın bütün cəhdlərinə baxmayaraq işğalçı ölkənin qoşunlarının çıxarılması vacib hesab edildi. Vacib məqamlardan biri də Azərbaycanın Silahlı Qüvvələrinin ərazi bütövlüyümüzün bərpası üçün atdığı qətiyyətli addımlar oldu.

2018-ci ilin may ayında Naxçıvanın Şərur rayonunun Günnüt kəndinin və ətrafdakı 11 min hektar ərazinin işğaldan azad edilməsi Silahlı Qüvvələrimizə Ermənistandan işğal altındakı Dağlıq Qarabağ bölgəsinə gedən yolları nəzarətdə saxlamağa imkan verdi. Yəni, bütün bunlar bir daha göstərdi ki, Azərbaycan ərazi bütövlüyü məsələsində çox ciddi addımlar atıb və həmişə bu məsələ Azərbaycan dövlətinin gündəlik fəaliyyətində əsas məsələ kimi qalacaq. 2019-cu ildə problemin həlli üçün müəyyən ümidlər vardır. Ermənistan bu imkandan istifadə edərsə, Azərbaycandan daha çox işğalçı ölkə problemin həllindən qazanacaq. Yox əgər Ermənistan özünün işğalçılıq siyasətini davam etdirəcəksə, bu ona gətirib çıxaracaq ki, Ermənistan vəziyyətini daha da ağırlaşdıracaq".





# “Müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edərək daha da qüdrətlənir”

## *Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib*

***Dekabrın 31-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.***

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından hərbi hissənin şəxsi heyətini təbrik etdi, Vətənin müdafiəsi kimi şərəfli və məsuliyyətli xidmətlərində zabit və əsgərlərə uğurlar arzuladı. Bildirdi ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətimizin başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə inkişaf edərək daha da qüdrətlənir.

Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın möhtəşəm uğurlara nail olduğunu qeyd edən Xidmət rəisi dövlətimiz tərəfindən görülən tədbirlər nəticəsində respublikanın müdafiə qabiliyyətinin, Silahlı Qüvvələrin hərbi-texniki potensialının durmadan möhkəmləndiyini, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasına yüksəldiyini diqqətə çatdırdı. Mədət Quliyev Prezident İlham Əliyevi bir daha əmin etdi ki, Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti Ali Baş Komandanın hər bir əmr və göstərişlərini bundan sonra da yüksək peşəkarlıqla, əzmlə və dərhal yerinə yetirəcək.







Sonra DTX-nin Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə maraqlı konsert proqramı oldu.

Sonda hərbi hissənin xidmətdə fərqlənmiş əsgərləri mükafatlandırıldı. Həmçinin hərbi tədrisdə yüksək nəticələr əldə etmiş əsgərlərin valideynlərinə, o cümlədən əsgər Heydər Əliyevin valideyni birinci xanım Mehriban Əliyevaya təşəkkür məktubu təqdim olundu.



# 2019-cu ilə - böyük zəfərlərə, ardıcıl uğurlara doğru

***Azərbaycanın tarixinə uğurlu il kimi daxil olan 2018-ci il estafeti 2019-cu ilə çox böyük nailiyyət və yeniliklərlə təhvil verdi. Güclü iqtisadiyyata malik olan Azərbaycan, eyni zamanda, bir sıra möhtəşəm layihələrə imza atmaqla dünya birliyində öz yerini möhkəmləndirdi. Ölkə Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, son 15 il ərzində Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır: "Prezident kimi çalışmışam ki, xalqa layaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək".***



## İlham Əliyev: "Heç bir beynəlxalq layihənin reallaşması Azərbaycanın iştirakı olmadan mümkün deyil"

### Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib

Bu gün Azərbaycanın son 15 ildə əldə etdiyi möhtəşəm, əzəmətli inkişafı ölkə Prezidenti İlham Əliyevin adı və Onun, bilavasitə həyata keçirdiyi düşünülmüş siyasətlə bağlıdır. On beş il... Bu on beş il ərzində Azərbaycanda həyat günbəgün dəyişir, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Və bu gün Azərbaycan vətəndaşı bu uğurları görür və 2019-cu ilin də zəfərlər ili olacağına və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi tariixi fikirlərini bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ulu Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

15 il öncə deyilənlər bu gün reallığa çevrilib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı, bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

### Son 15 ilin uğur reallıqları - faktlar, rəqəmlər...

Son 15 ildə sürətli inkişaf yolu keçən Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Belə ki, 15 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq, 44,3 milyard dollara yüksəlib. Sözsüz ki, bu, ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsində əldə olunub: "Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik".

Eyni zamanda, Azərbaycanda aparılan güclü sosial siyasət ölkədə sosial təminat sisteminin də ildən-ilə güclənməsinə şərait yaradır. Buna misal olaraq, son 15 ildə pensiyalarda 11,3 dəfə, ümumilikdə, dövlət büdcəsinin sosialyönümlü xərclərində 10 dəfə, o cümlədən, sosial müdafiə və sosial təminat xərclərində 11 dəfə artım qeydə alınıb. Eyni zamanda, Azərbaycan bir çox ölkələrə nümunə göstərilə bilən əldə etdiyi uğurlardan biri də yeni iş yerlərinin açılması olub ki, son 15 ildə 2 milyona yaxın yeni iş yeri yaradılıb.

### "Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir"

Hər bir müstəqli dövlət mövcudluğunu, təhlükəsizliyini, məhz Silahlı Qüvvələr vasitəsilə təmin edir. Ordu quruculuğu siyasətinin uğurla davam etdirən Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il bayramı münasibətilə Azərbaycan xalqını təbriki zamanı bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq: "Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır".

Dövlət başçısı onu da bildirib ki, "bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər".

Ölkə Prezidenti onu da vurğulayıb ki, Azərbaycanın güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək. Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur... Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər".

Bir sözlə, bütün bunlar yenicə qarşıladığımız 2019-cu ilin də növbəti uğurlu 10 illiklərə doğru atılacaq addamların tərkib hissəsi olacaqdır.

**RƏFİQƏ KAMALQIZI**



# Baş nazirin müavini məcburi köçkünlərə baş çəkib





Yanvarın 3-də gecə Xətai rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş vermiş yanğın nəticəsində 18 məcburi köçkün ailəsinin müvəqqəti yaşayış sahəsi yararsız vəziyyətə düşüb. SİA-nın verdiyi məlumata görə, Baş nazirin müavini Əli Əhmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xətai rayon icra hakiminin vəzifələrini müvəqqəti icra edən Rafiq Quliyev, komitənin və icra hakimiyyətinin məsul əməkdaşları hadisə yerində olub, yaranmış problemin həlli üçün birlikdə müvafiq tədbirlər görüblər.

Yanğın baş verdikdən sonra Dövlət Komitəsi tərəfindən yaradılmış komissiya hadisə yerinə gedib, siyahıyaalınma aparılıb. 17-si Füzuli, biri Laçın rayonundan olmaqla, 18 məcburi köçkün ailəsi artıq müvəqqəti mənzillərdə yerləşdirilib. Həmin ailələr dövlət tərəfindən mənzillə təmin edilənə qədər orada yaşayacaqlar. Hazırda FHN-in mütəxəssisləri tərəfindən yanğının başvermə səbəbləri araşdırılır. Araşdırmadan sonra yekun rəy veriləcək. Rəy əsasında müvafiq hüquqi addımlar atılacaq. Xatırladaq ki, yanvarın 3-də Bakı şəhərinin Xətai rayonunda məcburi köçkünlərin məskunlaşdığı, ümumi sahəsi 1020 m² olan ikimərtəbəli, 11 otaq və klubdan ibarət yataqxana binasının (1933-cü ildə inşa olunub) dam örtüyünün (taxta atmalar) yanar konstruksiyaları 500 m² sahədə və klubun yanar konstruksiyaları 190 m² sahədə (ümumi 690 kv.m) yanıb. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb

*Ceyhun Rasimoğlu*

# “2018-ci il Azərbaycan tarixinə növbəti uğurlu il kimi daxil oldu”



2018-ci il Azərbaycan tarixinə növbəti bir uğurlu il kimi daxil oldu, həm iqtisadi, həm də siyasi sahədə böyük nailiyyətlər əldə edildi. SİA-nın verdiyi məlumata görə, bunu trend-ə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov deyib.

S.Novruzov vurğulayıb ki, ümumiyyətlə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub: “Bu baxımdan geridə qoyduğumuz 2018-ci il də istisna olmayıb. Xüsusi vurğulamaq istərdim ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci il 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin yaradıb, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirib. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsi ilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir”.

Millət vəkili bildirib ki, ötən ildə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Deputat qeyd edib ki, Azərbaycanın qarşısında duran ən mürəkkəb problem heç şübhəsiz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir: “Lakin ötən il Azərbaycanın Ermənistana qarşı uğurla tətbiq etdiyi “iqtisadi izolyasiya” siyasəti nəticəsində bu ölkədə ciddi sosial-siyasi kataklizmlər baş verib, hakimiyyət dəyişikliyi olub. Paralel olaraq Azərbaycan Silahlı Qüvvələrinin döyüş potensialı daha da artıb, ordumuz dünyanın ən güclü orduları sırasında ön cərgələrə çıxıb”.

S.Novruzov əlavə edib ki, başa vurduğumuz ilin əlamətdar hadisələrindən biri də daim milli-mənəvi dəyərlərimizə verilən yüksək qiymət çərçivəsində Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində, ölkə miqyasında və diplomatik nümayəndəliklərimizin yer aldığı xarici ölkələrdə geniş və təntənəli şəkildə qeyd edilməsi oldu.

# Bəhruz Quliyev: “2019-cu il bizə daha böyük ümidlər verir”

***“Təbii ki, Azərbaycanın dünyanın siyasi arenadakı yeri və rolu onun qarşılaşdığı nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən işğalçı Ermənistanın əleyhinə qəbul edilən sənədlərdə də özünü göstərməkdədir.***

Daha dəqiq desək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində haqq və ədalət tərəfi olaraq məhz ölkəmizin göstərilməsi yeni qarşıladığımız 2019-cu ildə bizə daha böyük ümidlər verir, inam hissi yaradır”. Bu fikirləri SİA-ya “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev, Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bu ilin münaqişənin həlli baxımından irəliləyiş ili olacağına münasibətini açıqlayarkən deyib.

Bəhruz Quliyevin sözlərinə görə, dövlət başçısının ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutması ilə bağlı fikirləri də bu reallığı özündə kifayət qədər əks etdirməkdədir: “Bu gün regional və xarici siyasətdə elə bir layihələr yoxdur ki, Azərbaycan bu layihələrdə ya təşəbbüskar, ya da ideyaverici rolunda çıxış etməsin. O cümlədən, məhz dövlətimizin bu məsələdə haqlı mövqedə olmasını bizimlə bir çox sahələrdə əməkdaşlıq, strateji tərəfdaşlıq etmək marağında olan ölkələr, siyasi və iqtisadi sferada fəaliyyət göstərən aparıcı təşkilatlar da gəldikləri qənaətləri ilə sübuta yetirirlər. Bu baxımdan, cənab İlham Əliyev Qarabağ mövzusuna toxunarkən, ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlardakı uğurlu fəaliyyətini önə çəkib. Xüsusilə, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədini göstərərək, bu münasibətlərinən yüksək səviyyədə olduğunu, Aİ-nin münaqişəsinin həlli məsələsində düzgün mövqe tutduğunu vurğulayıb”.

“Daha bir məsələ isə, bilavasitə Prezident İlham Əliyevin bu istiqamətdə göstərdiyi davamlı, qətiyyətli və deyərdim ki, sərt mövqeyidir”, qeyd edən “SƏS” qəzetinin baş redaktoru əlavə edib ki, bu kimi prin-



sipial mövqenin əsasında haqq və ədalət amilləri dayanmaqdadır: “Dövlətimizin başçısı Dağlıq Qarabağın tarixən Azərbaycan torpaqları olduğunu xatırlatmaqla, işğal altındakı ərazilərimizin qeyd-şərtsiz, eləcə də beynəlxalq hüquq və norma prinsipləri çərçivəsində həll olunacağını əminliklə bildirib. Bu isə, dünya birliyinin həmin torpaqları bilavasitə Azərbaycan ərazisi kimi tanımasının bariz göstəricisidir. Beynəlxalq hüquqa hörmət isə bütün dövlətlərin vəzifəsidir və nəzərə alarsaq ki, BMT-də sözügedən məsələ ilə bağlı dörd qətnamə qəbul olunub, həmçinin, digər mötəbər təşkilatlar da işğal faktını pisləyir, bu zaman Ermənistanın heç bir halda bu qətnamələrdən yaxasını qurtara bilməyəcəyini bəri başdan söyləyə bilərik. Prezident İlham Əliyev yola saldığımız 2018-ci ildə də ciddi nailiyyətlər əldə etməyimizi xatırladaraq, həmin istiqamətdə siyasətin davam etdiriləcəyini bəyan edib”.

Siyasi ekspert hesab edir ki, Ermənistanın işğalçılıq siyasəti aparması bu ölkənin özünə köklü zərbələr vurur: “Bu gün Ermənistanda kimlərin hakimiyyəti təmsil etmələrindən asılı olmayaraq, fakt budur ki, həmin ölkə işğalçı olaraq tanınır. Habelə, orada baş verən siyasi böhranlar, iqtisadi tənəzzüllər ötən ilin may ayında dəyişilmiş xunta rejimindən fərqli şəkildə idarəçiliyə şərait yaratmayacaq. Erməni xalqı ac və səfalət ilində yaşayır, ölkənin miqrasiya problemləri həll olunmayıb və sürətlə boşalır. Pafoslu Paşinyan hakimiyyəti də gec, ya da tez sadə xalqın qarşısında tab gətirə bilməyəcək. Çünki faktiki olaraq, erməni cəmiyyəti ona bağladığı son ümidlərinin də puça çevrildiyini anlamağa başlayıb.

Habelə, bu gün Ermənistanın yeni iqtidarı ilə qondarma “DQR” rejimi arasında kəskin fikir ayrılıqları yaşanır, hətta ziddiyyətlər, qarşıdurmalar daha aqressiv fona doğru yönəlib. Bütün bunlar onların qüdrətli Azərbaycan dövləti qarşısında məğlubiyyətə doğru sürüklənmələrinin sübutudur. İstər Rusiyanın, istərsə də Qərbin nəzərində olan təşkilatlarda Ermənistan ən uzağı formal ölkə olaraq təmsil oluna bilər və bundan o tərəfə ümumiyyətlə adlaya bilməz.

Eləcə də, Ermənistanın beynəlxalq və regional layihələrdən kənarda qalması, təcrid olunması məsələsində Azərbaycanın dünyadakı nüfuzunu göstərə bilərik. Ona görə də, cənab İlham Əliyev öz təbrikində inamla ifadə edib ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər”.

Bəhruz Quliyev Azərbaycanın hərbi potensialının dünya dövlətləri arasında yüksək yerləri tutması faktorunu da xatırladaraq deyib ki, Prezident İlham Əliyev bu məsələyə çox həssaslıqla, diqqətlə yanaşmaqdadır: “Cənab Prezident istər ötən il keçirilən hərbi paradı və bu paradda nümayiş etdirilən ən müasir texnikaları, silahları, istərsə də Naxçıvanda uğurlu hərbi əməliyyat nəticəsində 11 min hektar torpağın Ermənistanın işğalından azad edilməsini bəyan etməklə hər birimizdə böyük ruh yüksəkliyi yaradıb, əminliyimizi daha da artırıb. Tam əminliklə deyə bilərik ki, artıq işğalçının qaça biləcəyi heç bir künc, dalan qalmayıb və cənab Ali Baş Komandanımızın rəhbərliyi altında Dağlıq Qarabağımızın azad ediləcəyi gün heç də uzaqda deyil”.

*Rövşən NURƏDDİNOĞLU*




# 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib

## Sənədə əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələr təşkili ediləcək

***Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 29 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədiblər. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***

20 yanvar faciəsinin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi və milli qürurumuzu qıra bilmədi. Xalqa qarşı törədilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxardı. Əslində, imperiyanın Bakıda qanlı hadisəni törətməklə, İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın “A” təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü və suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi.

SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı ilə paytaxtımızda fövqəladə vəziyyət elan olundu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi.

### 1990-CI İLİN QANLI 20 YANVAR FACİƏSİNƏ DÖVLƏT SƏVİYYƏSİNDƏ TAM SİYASİ-HÜQUQİ QİYMƏT VERİLDİ

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailəüzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” Dahi Öndər Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

### ŞƏHİDLƏR XİYABANI XALQIMIZIN MÜQƏDDƏS AND YERİNƏ VƏ ZİYARƏTGAHINA ÇEVRİLDİ

Ümummilli Lider Heydər Əliyev, 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də, bir sıra mühüm tədbirlər həyata keçirdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə, bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin və əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ildəki prezident seçkilərindən sonra dərhal sonra imzaladığı birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur.

Bu Fərman Azərbaycan vətəndaşına, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını qurban vermiş, sağlamlığını itirmiş insanlara olan münasibətin bir göstəricisidir. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı Vahid Kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun “20 Yanvar” stansiyasının üzərindəki dairədə Xatirə-Kompleksin yaradılması oldu. Prezident İlham Əliyevin tapşırığı ilə Bakının Yasamal rayonundakı “20 Yanvar” dairəsində Memorial Abidə-Kompleks yaradıldı. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 29-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib.

Sənədə əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin, dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də, televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər Xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər Xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar, hüzn əlaməti olaraq, dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Xalq rəssamı Arif Əzizin 75 illik yubileyinə həsr olunmuş sərgi açılacaq




Yanvarın 15-də Muzey Mərkəzinin sərgi qalereyasında Xalq rəssamı, Dünya Rəssamlıq Akademiyasının Bakı nümayəndəliyinin rəhbəri, Mədəniyyət və İncəsənət Universitetinin professoru Arif Əzizin və tələbələrinin “Maestro end Artists” adlı sərgisi açılacaq. Konseptual sərgi silsiləsinin davamı olan sərgi, rəssamın 75 illik yubileyi çərçivəsində Azərbaycan və onun hüdudlarından kənarda təşkil olunan tədbirlər sırasında unikal mahiyyətli bir layihədir. Sərgidə Arif Əzizin və 100-ə yaxın tələbəsinin əsəri nümayiş ediləcək.

## Jurnalist Camal Qaşıqçının qətli barədə iş üzrə məhkəmənin ilk iclası keçirilib



Ər-Riyadda səudiyyəli məşhur jurnalist Camal Qaşıqçının keçən il oktyabr ayında Səudiyyə Ərəbistanının İstanbuldakı baş konsulluğunda qətlə yetirilməsi barədə cinayət işi üzrə məhkəmənin ilk iclası keçirilib. Birinci iclasda jurnalistin qətlində əli olmaqda ittiham edilən 11 nəfər məhkəmə qarşısına çıxarılıb. Baş prokurorluq beş müttəhim barəsində ölüm hökmü çıxarılmasını tələb edib. Məlumatda bildirilir ki, C. Qaşıqçının qətlində ittiham edilən bir neçə şəxs barəsində təhqiqat davam edir. Türkiyənin məhkəmə hakimiyyəti orqanlarına bu iş üzrə onların əlində olan sübutların verilməsi xahişi ilə müraciət edilib, lakin bu müraciətə hələ cavab alınmayıb.

# 2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və əlamətdar hadisələrlə zəngin oldu

*Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun yap.org.az-a müsahibəsi*



***- Nizami müəllim, artıq 2018-ci il tarixə çevrildi. Sizcə, ötən il ölkəmiz üçün hansı səciyyəvi cəhətləri ilə əlamətdar oldu?***

- 2018-ci il Azərbaycan üçün mühüm uğurlarla və bir sıra əlamətdar hadisələrlə zəngin olub. Yola saldığımız il ölkəmizin tarixinə daha bir uğurlu il kimi daxil oldu. Azərbaycan başa çatan 2018-ci ildə siyasi və beynəlxalq mövqelərini daha da möhkəmləndirdi, mühüm uğurlar qazandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həyatın bütün sahələrində yeni nailiyyətlərə imza atıb, qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyib. Eyni zamanda, dünya azərbaycanlıları həmrəylik nümayiş etdiriblər. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bu məqamları geniş şəkildə vurğuladı.

Başa vurmaqda olduğumuz 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin, Silahlı Qüvvələrimizin, parlamentimizin yaradılmasının 100 illik, Ümummilli liderimiz Heydər Əliyevin 95 illik yubileyləri geniş şəkildə qeyd olundu. Xüsusilə qeyd edim ki, ölkəmizdə növbəti prezident seçkiləri keçirildi, Azərbaycan seçicilərinin böyük əksəriyyəti səsvermədə iştirak edərək cənab İlham Əliyevə yenidən etimad göstərdi. 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərinin nəticələri Azərbaycanda dövlət başçısı İlham Əliyevin nüfuzunun kifayət qədər yüksək olduğunu bir daha təsdiqlədi. Bu seçkilərdə xalq öz iradəsini növbəti dəfə ortaya qoyaraq, son 15 ildə Azərbaycanı inamla idarə edən, ölkəmizə misilsiz uğurlar qazandıran cənab İlham Əliyevə səs verdi və Onu növbəti 7 il üçün Azərbaycanın dövlət başçısı seçdi. Bu seçim xalqın öz liderinə sonsuz inamının ifadəsi idi.

Bundan başqa, ötən il Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə, o cümlədən Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar, eyni zamanda, Naxçıvanda 11 min hektara yaxın ərazinin və Şərurun Günnüt kəndinin işğaldan azad edilməsi ordumuzun istənilən vəzifəni icra etməyə qadir olduğunu bir daha nümayiş etdirdi.

Həmçinin, 2018-ci ildə siyasi, iqtisadi, nəqliyyat, enerji, sosial, humanitar, mədəniyyət, idman və digər sahələrdə tarixi əhəmiyyətə malik möhtəşəm nailiyyətlər əldə edildi. Məsələn, iqtisadi sahədə TANAP və STAR layihələrinin həyata vəsiqə alması çox böyük iqtisadi hadisədir. Bu layihələr Azərbaycanla Türkiyəni nəinki regionda, bütövlükdə dünyada daha da gücləndirəcək. Yəni, 2018-ci il Azərbaycan tarixində dərin və konkret nəticələr verən iqtisadi islahatlar ili kimi qalacaq. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşması da buna əyani sübutdur.

***- Azərbaycan həmçinin nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bu baxımdan, ölkəmizin humanitar əməkdaşlıq mərkəzinə çevrilməsinin əhəmiyyəti nədən ibarətdir?***

- Məlumdur ki, Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Yüksək beynəlxalq nüfuza malik olan Azərbaycanın daxili və xarici siyasət kursunu, dünya siyasi arenasında yeri və rolunu xarakterizə edərkən ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etməsini də qeyd etmək lazımdır. Ümumiyyətlə, regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çox nüfuzlu beynəlxalq tədbirlərin respublikamızda keçirilməsi Azərbaycanın beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməsindən xəbər verir. Beləliklə, Azərbaycan özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır.

Dünyanın sivilizasiyalararası və dinlərarası dialoq mərkəzlərindən biri kimi tanınan Azərbaycan ötən il bir sıra mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdi. Bu sırada ən yüksək səviyyədə keçirilmiş VI Bakı Beynəlxalq Humanitar Forumunu, VI Qlobal Bakı Forumunu, Qoşulmama Hərəkatının nazirlər konfransını, Dünya Limanlar Konfransını və digər tədbirləri qeyd etmək olar. Bu il rəsmi Bakının təşəbbüsü ilə başlanan, mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafına xidmət edən "Bakı Prosesi"nin 10 ili tamam oldu. Azərbaycanın əməkdaşlıq üçün nadir platforma olan "Bakı Prosesi"ni uğurla davam etdirməsi, ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə vəzifələrin icrası istiqamətində görülən işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanda ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçirildi. Bütün bu tədbirlər isə davamlı xarakter daşıyır.

***- Ötən il Azərbaycan tolerantlıq və multikulturalizm ənənələrinin təbliği baxımından da önəmli tədbirlər reallaşdırdı...***

- Azərbaycan dünyaya yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına mühüm töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir.

Ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan elə bir ölkədir ki, burada milli-dini-irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır.

Tolerantlıq mərkəzi və multikulturalizm diyarı kimi tanınan Azərbaycan həm də İslam həmrəyliyinə əvəzsiz töhfələr verir. Şərq və Qərb sivilizasiyalarının harmonik şəkildə qovuşduğu Azərbaycanda müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən İslam mədəniyyətinə məxsus tarixi abidələr, maddi mədəniyyət nümunələri, mənəvi irs dövlət səviyyəsində qorunur, himayə olunur. Eyni zamanda, Azərbaycan müsəlman ölkələri arasında - İslam aləmində nüfuzlu dövlət kimi tanınır. Məhz bunun qanunauyğun nəticəsidir ki, respublikamız müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malikdir və münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Mədəniyyət, humanitar sahələrdə də Azərbaycan İslam ölkələri arasında əlaqələrin genişlənməsində mühüm rol oynayır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, İSESCO kimi aparıcı təşkilatların fəal üzvüdür, onların nüfuzunun yüksəldilməsinə, İslam mədəniyyətinin inkişaf etdirilməsi və dünyada yayılması işinə öz dəyərli töhfələrini verir.

***- Nizami müəllim, 2019-cu ildən gözləntiləriniz nədir?***

- İnanıram ki, yeni başlayan 2019-cu il də ölkəmiz üçün uğurlu və düşərli il olacaq. Xalqımızın əsas arzusu torpaqlarımızın, Qarabağımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtmasıdır. Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində bu müqəddəs amala, arzumuza çatacağımıza inanıram.

Eyni zamanda, 2019-cu ildə bizi bir sıra əlamətdar hadisələr gözləyir. Qlobal nüfuzlu tədbirlərin keçirildiyi məkana çevrilən Bakıda UNESCO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. 2019-cu ildə Bakı Dövlət Universitetinin təsis olunmasının 100, görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi qeyd olunacaq. Bu ilin dekabr ayında respublikamızda bələdiyyə seçkiləri keçiriləcək. Yəni bu kimi nüfuzlu tədbirlərin sayı daha çoix olacaq. Mən sadəcə, bir neçəsini qeyd etdim.

Bilirsiniz ki, bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevi siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir. Çünki xalq Azərbaycanı parlaq sabahlara doğru aparan dövlət başçımızın siyasi kursunu birmənalı şəkildə dəstəkləyir. Ölkəmizdə sabitliyi təmin edən başlıca amil isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu, eləcə də xalq-iqtidar birliyidir. Bütün bunlar qarşıdakı dövrün də ölkəmiz üçün uğurlu olacağına əminlik yaradır. Ona görə də, Azərbaycan xalqı daim gələcəyə nikbinliklə baxır.

## Fikrət Məmmədov Ağdaşda vətəndaşları qəbul edəcək



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov tərəfindən yanvarın 7-də Ağdaş rayonunda vətəndaşların qəbulu keçiriləcək. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ağdaş rayonu Heydər Əliyev Mərkəzində (ünvan: Ağdaş Rayon İcra Hakimiyyətinin yaxınlığı) keçiriləcək qəbulda Ağdaş, Yevlax və Ucar rayonlarından olan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Vətəndaşlar qəbula Göyçay regional ədliyyə idarəsi (ünvan: Göyçay şəhəri, Nizami küçəsi 111, əlaqə telefonu: (02027) 4-30-41, (050) 220-10-12), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə, eləcə də Ağdaş rayonu Heydər Əliyev Mərkəzində yazıla bilərlər.

## Adnan Zamburkan: "Azərbaycanda gedən inkişaf prosesləri Türkiyədə sevinclə qarşılanır"



"Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin böyük tarixi var. Azərbaycan Türkiyə üçün böyük önəmə malik bir dövlətdir. Azərbaycanda gedən inkişaf prosesləri Türkiyədə sevinclə qarşılanır." Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Kocaeli şəhər Mədəniyyət və Turizm İdarəsinin müdiri Adnan Zamburkan bildirib. O qeyd edib ki, ulu öndərlər Mustafa Kamal Atatürkün və Heydər Əliyevin dedikləri kimi, "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", "Biz bir millət, iki dövlətik".

## "Azərbaycan dünyanın geosiyasi xəritəsində dəyişiklik edən ölkəyə çevrildi"



"2018-ci il Azərbaycanın daxili və xarici siyasətində ən prioritet istiqamət Dağlıq Qarabağ münaqişəsi oldu. Müharibə tək səngərlərdə deyil, həm diplomatik, həm diaspora, həm qeyri-hökumət təşkilatları, həm informasiya istiqamətində oldu". Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib. Siyasi şərhçi bildirib ki, ötən il Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan diplomatik addımlarla yadda qaldı: "Bu, həm Azərbaycan Prezidentinin apardığı siyasətlə, həm də aprel hadisələrindən sonra səngərlərdə əldə olunan qələbə ilə bağlıdır".

Onun sözlərinə görə, ötən il Azərbaycan üçün həm NATO, sülhməramlı proseslərdə iştirakı, həm də bir sıra ölkələrlə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması və inkişafı ilə yadda qaldı. A.Nağıyev qeyd edib ki, ötən il ölkəmizdə iqtisadi islahatlar ili kimi yadda qaldı: "Həm neft, həm də qeyri-neft sektorunda, həm ölkədə, həm də xaricdə mühüm, böyük obyektlərin açılması, islahatların aparılması və digərlərini söyləmək olar. Təbii ki, bütün bunlar Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına istiqamətlənmişdi".

Siyasi şərhçi qeyd edib ki, ümumi götürdükdə 2018-ci ildə həm ölkəmizin təhlükəsizliyi, həm də vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb: "İcraedici orqanlarda müəyyən dəyişikliklərin olması, bunun həm regional, həm də qlobal layihələrin inkişafına gətirib çıxarması Azərbaycan 2018-ci ildə dünyanın geosiyasi xəritəsində dəyişiklik edən ölkəyə çevrildi". A.Nağıyev əlavə edib ki, 2018-ci ildə Azərbaycanda həll olunmayan məsələlər də oldu: "İnanıraq ki, 2019-cu ildə onların reallaşması istiqamətində lazımi addımlar atılacaq".

# Bakıdan Gəncəyə və gələcəyə..!

## *Sürət qatarından silinməz təəssürat reportajı*

***Hər bir inkişaf amilinin təməlində onun reallaşdırılması üçün göstərilən ardıcıl səylər və əldə edilən nəticələr dayanır. Bu mənada, Azərbaycanın nəqliyyat sistemində aparılan islahatlar, o cümlədən, həyata keçirilən nəhəng layihələr bu faktoru özündə kifayət qədər əsaslandırmaqdadır. Belə ki, Azərbaycan ərazilərinin də daxil olduğu Böyük İpək Yolunun perspektivləri baxımından, ölkəmizdə mövcud olan yükdaşımadan tutmuş, sərnişindaşıma nəqliyyatına qədər hər bir işdə müsbət nəticələr əldə olunmaqdadır. Artıq dünyanın bütün yolları Avropa və Asiyanı birləşdirən Azərbaycandan keçir. Söz yox ki, belə nəticələrin əldə olunmasında Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasəti ilə yanaşı, həm də qətiyyətli iqtisadi siyasət faktoru dayanır. Məhz dövlət başçımızın sarsılmaz iradəsi, məqsədyönlü siyasəti nəticəsində müstəqil və müasir Azərbaycan dünyanın iqtisadiyyat indeksində liderlik mövqeyinə sahiblənib.***








### Dünyanın sərnişindaşıma sistemində ən müasir tələblərə cavab verən sürət qatarı

Bu gün tam əminliklə deyə bilərik ki, digər nəqliyyat sektorları ilə yanaşı, xüsusilə, dəmir yolu sahəsində görülən işlərin, əldə edilən nailiyyətlərin, demək olar ki, sayı-hesabı yoxdur. Dünya Azərbaycanlılarının Milli Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarının ilk dəfə tarixi şəhərimizə yola düşməsi həmin uğurların məntiqi nəticəsi olaraq qiymətləndirilə bilər. Belə ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti 30 dekabr 2018-ci il tarixindən etibarən Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarının hərəkətinə start verdi. Artıq istifadə olunan bu uğurlu marşrut Bakı və Gəncə şəhərləri, eləcə də, həmin xətt üzrə yerləşən rayonlarla nəqliyyat əlaqələrinin genişləndirilməsinə, həmçinin, əhalinin sosial sifarişinin ödənməsinə hesablanmış, eləcə də, müstəsna əhəmiyyət kəsb edən layihə olaraq dəyərləndirilməkdədir. Dünyanın sərnişindaşıma sistemində ən müasir tələblərə cavab verən sürət qatarı hər ayın cüt tarixlərində Bakıdan, tək tarixlərində isə Gəncə şəhərindən saat 09:00-da yola düşərək fəaliyyətə başlayıb. Qeyd edək ki, qatarın yolda olma müddəti 4 saat 28 dəqiqə təşkil edir. Qatar, Biləcəri, Yevlax və Goran stansiyalarında dayanacaqlarda dayanır. O cümlədən, 4 vaqondan ibarət qatarda Birinci class (9 yer), Biznes (62 yer) və Standart (296 yer) olmaqla, cəmi 367 oturacaq yer var.

Beləliklə, sürət qatarının tarixi şəhərimiz, həmçinin, ikinci paytaxtımız hesab edilən füsunkar Gəncəmizə ilk səfəri hafizələrimizdə silinməyəcək izlər buraxıb. Bu səfərin ilk sərnişinləri "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, deputatlar və jurnalistlər olublar. "Stadler" şirkətinin istehsalı olan qatar 159 kilometr/saat sürətlə hərəkət etməklə yanaşı, öz komfortu ilə də hər kəsi valeh edib. Belə ki, sərnişinlər VIP və biznes sinif vaqonlardan istifadə etməklə yanaşı, hər bir vaqon kiçik mətbəx, soyuducu və simsiz internetlə təchiz olunub.

### Yüksək səviyyəli xidmət, Wi-Fi və komfort...

Səfər çərçivəsində jurnalistlərin suallarını cavablandıran Cavid Qurbanov qeyd edib ki, artıq Bakı-Gəncə sürət qatarı işə düşüb və bu, çox uğurlu layihədir. "Bəziləri deyirdilər ki, söz verilir, amma əməl edilmir. Biz söz də veririk, əməl də edirik", deyən QSC-nin sədri əlavə edib ki, sürət qatarında xidmət yüksək səviyyədədir: "Burada fərqli qiymətlər mövcuddur. Biznes-klass yerlər var. Bunlar bir qədər bahalıdır, belə də olmalıdır. İnsanlara seçim imkanı verilir. Yaxın vaxtlarda Wi-Fi sistemi təkmilləşdiriləcək".

O, qatarda təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təmin olunduğunu da vurğulayıb: "Bakı-Gəncə üzrə sərnişin qatarı əvvəl 8 saata, bu gün isə 5 saat 30 dəqiqəyə gedir. Yeni sürət qatarında isə bu 4 saat 30 dəqiqədir."

### Yalamaya, Qəbələyə və Qarabağa doğru...

Lakin bununla yanaşı, Cavid Qurbanov deyib ki, gələcəkdə bu vaxt 3 saat yarıma qədər azaldıla bilər: "Birdən-birə risk etmək istəmirik. Yol üstündə keçidlər olur. Piyadalar qatar yollarının üstündən keçirlər. Maşinist ya sürətini yavaşıtmalıdır, ya da piyadanın üstündən keçməlidir. Əsas məsələ təhlükəsizlikdir. Bunun üçün yol kənarında keçidlər bağlanmalıdır. Konfliktsiz yol keçidlərinə keçilməlidir, yəni maşın keçidin altından, qatar isə üstündən keçir". QSC-nin sədri bildirib ki, növbəti sürət qatarı Qəbələ və Yalamaya olacaq. Artıq Bakı-Yalama dəmir yolunun tikintisi üçün tender elan olunub. Tikintinin iki il müddətinə başa çatması nəzərdə tutulub. "Bakı-Yalama istiqamətində tikinti digərlərindən daha möhtəşəm olacaq. Bu dəmir yolunda yeraltı və yerüstü keçidlər nəzərə alınıb, təhlükəsizlik baxımından tədbirlər görüləcək. İlkin olaraq, Bakı-Qəbələ sürət qatarının istifadəyə verilməsi nəzərdə tutulub. Çünki Qəbələ stansiyası Bakı-Ləki dəmir yolunun üzərindədir. Ləkidən Qəbələyə hazırda dəmir yolunun tikintisi gedir. 2019-cu ilin axırına qədər Bakı-Qəbələ sürət qatarının işə düşməsi planlaşdırılır", Cavid Qurbanov qeyd edib.

Əlbəttə ki, bizlər də arzuladıq ki, bu qatarımız Azərbaycanımızın bütün bölgələrinə səfər etsin və İnşaAllah Qarabağımıza, Xankəndimizə doğru irəliləsin!

### Cavid Qurbanov: "Bu açılış da Prezidentin vətəndaşlara yeni il hədiyyəsidir"

# Bakıdan Gəncəyə və gələcəyə..!

## Sürət qatarından silinməz təəssürat reportajı







Yeri gəlmişkən, əldə edilən hər bir uğura qısqananlar, ona kölgə salmağa çalışanlar da növbəti cəhdlərini etsələr də, onların bu cəhdləri nəticəsiz qaldı. Elə ən müvafiq cavabı da, Cavid Qurbanov mediaya açıqlamasında verib. O, səsləndirilən müxtəlif əsassız ittihamlara qarşılıq bildirib: "Bəziləri deyir "Cavid Qurbanov sözünün üstündə durmur, dediyi söz yalan çıxır" deyir. Mən onlara mesaj göndərirəm ki, mən sözümün üstündə dayanıram. Çünki mən Prezident İlham Əliyevin komandasındayam. Bu açılış da Prezidentin vətəndaşlara yeni il hədiyyəsidir. Sınaq və hərəkətin tənzimlənməsi ayrı-ayrı şeylərdir. Hazırda sürət saatda 130 - 135 km-dir. Qatarın texniki imkanları saatda 300 km-ə qədər hərəkətə icazə verir. Biz layihəni gerçəkləşdirəndə yolun maksimal sürətini 160 km qədər qoymuşuq. Gələcəkdə bu, sürətin artımına doğru gedəcək".

Sədr qeyd edib ki, Bakı-Gəncə marşrutu üzrə qatarlarda gediş haqqının artırılması nəzərdə tutulmayıb. "Bu marşrut üzrə 3 dayanacaq nəzərdə tutulub. Bu da tələbata uyğun tənzimlənəcək. Qatar Yevlaxda, Goranda və Gəncədə dayanacaq. Yevlaxda Qarabağ zonası, Şəki-Balakən istiqamətində gedənlər düşəcək. Gorana yaxın Naftalan kurort mərkəzi olduğu üçün turist axını çoxdur. Ora qazaxlar, türklər, həmçinin ərəblər daha çox gəlir".

### Bu qatarla Türkiyəyə də gediləcək!

"Biz bununla kifayətlənməyəcəyik. Bu qatarla Türkiyəyə qədər gedəcəyik", deyə vurğulayan Cavid Qurbanov səfər iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edərək, arzularını çatdırıb: "Arzu edirəm ki, biz bu qatarla Murovdan keçib Kəlbəcərə, Xankəndinə gedək. Biz o dığalara Azərbaycanın nəyə qadir olduğunu göstərəcəyik".

Millət vəkilləri - Hikmət Babaoğlu, Aydın Hüseynov, Musa Quliyev, Naqif Həmzəyev və digərləri də Bakı-Gəncə-Bakı sürət qatarının uğurlu perspektivləri, Azərbaycanda turizmin inkişafına, iqtisadiyyata verəcəyi töhfələri barədə fikirlərini bildirərək, bütün bunların təməlində Prezdient İlham Əliyev cənablarının yorulmaz, qətiyyətli və məqsədyönlü siyasətinin dayandığını vurğulayıblar.

Bax, belə maraqlı fakir mübadilələri ilə sürət qatarımız, hətta vaxtından əvvəl - təqribən 3 saat 50 dəqiqəyə gözəl Gəncəmizə çatdı.

### Gəncə bizi möhtəşəm bayram ovqatı ilə qarşıladı!

Qatar Gəncəyə daxil olarkən, gəncəlilər onu böyük füsunkarlıq və qələbəliklə qarşıladılar. Qarşılanma mərasimində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış ediblər. Qeyd olunub ki, bu gün yalnız Gəncə şəhərinin deyil, bütövlükdə, ölkəmizin həyatında əlamətdar hadisədir. Bu sürət qatarının istifadəyə verilməsi Prezident İlham Əliyevin Gəncəyə olan diqqətinin növbəti bariz nümunəsidir. Gəncə Qafqazın ən gözəl şəhərlərindən biridir. Dünyanın ən yüksək standartlarına cavab verən beynəlxalq hava limanı, yeni yollar və təhsil ocaqları Gəncədəki inkişafın göstəricisidir. Bu gün isə onların sırasına biri də əlavə olundu. "Biz çox sevinirik ki, belə sürət qatarı, məhz Gəncə istiqamətində istifadəyə verilib", deyə fikirlərdə vurğulanıb və bildirilib ki, sürət qatarı Bakıdan Gəncəyə ilk səferini etməklə yanaşı, həm də gələcəyə yönələn marşrutdur.

Çıxışlardan sonra respublikanın tanınmış incəsənət ustalarının bir-birindən maraqlı konsert proqramları təqdim olunub. Gəncəlilər və şəhərin qonaqları belə bir tarixi günün fərəhini yaşamaqla yanaşı, həm də bayram ovqatını yaşayıblar.

Sonra, sürət qatarı yenidən Bakıya üz tutdu. Dönüşümüz də, demək olar ki, eyni müddəti əhatə etdi. Bu səfərimiz həm də həyatımızda silinməz izlər buraxdı. Çünki media həmkarları ilə səfərə çıxmaq hər zaman maraqlı xatirələrlə, yadda qalır. Bizlər bu möhtəşəm sürət qatarı ilə Qarabağımıza səfər edəcəyimiz ümidi ilə vidalaşıb-ayrıldıq...

***Rövşən NURƏDDİNOĞLU,***
***Murad ADİOLOĞLU***
***Bakı-Gəncə-Bakı***

## Azərbaycana yaz fəsli martın 21-də gələcək



2019-cu ildə fəsillərin Azərbaycana daxilolma vaxtları açıqlanıb. AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılovun SİA-ya bildirib ki, yaz fəslinin ölkəmizə qədəm qoyması martın 21-də yerli vaxtla saat 01:58-ə təsadüf edəcək və bu zaman gecə ilə gündüz bərabərləşəcək.

İyunun 21-də saat 19:54-də yay, sentyabrın 23-də 11:50-də payız, dekabrın 22-də 08:19-da isə qış fəsli ölkəmizə qədəm qoyacaq.

## Daha üç qurum "ASAN ödəniş" sisteminə inteqrasiya edilib



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN ödəniş" sisteminin əhatə dairəsinin genişləndirilməsi istiqamətində işləri davam etdirir. Agentlikdən AZƏRTAC-a bildiriblər ki, Milli Arxiv İdarəsi, Dövlət Reklam Agentliyi və "Azəriqaz" İstehsalat Birliyinin (İB) "ASAN ödəniş" sisteminə inteqrasiyası üzrə işlər uğurla başa çatdırılıb.

Vətəndaşlar və hüquqi şəxslər "ASAN ödəniş" sistemi vasitəsilə Milli Arxiv İdarəsi üzrə rüsum ödənişlərini, Dövlət Reklam Agentliyi üzrə rüsum və yayım haqqı ödənişlərini, "Azəriqaz" İB üzrə isə təbii qazdan istifadəyə görə kommunal xidmət haqqı ödənişlərini həyata keçirə bilərlər. Müvafiq ödənişləri www.e-gov.az , www.asanpay.az portalı və ya "ASAN ödəniş" sisteminə qoşulmuş bütün ödəniş portalları, həmçinin 10 000-dən artıq ödəniş terminalları vasitəsilə həyata keçirmək mümkündür.

## Ötən il İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 231,2 milyon manat kredit verilib




Ötən ilin yanvar-noyabr aylarında banklar Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 231,2 milyon manat kredit verib. Azərbaycan Mərkəzi Bankının məlumatında deyilir ki, bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 34,1 faiz çoxdur.

# Proqnoz: 2019-cu il də müxalifət üçün uğursuz olacaq

***Əvvəlki illər kimi, 2018-ci il də müxalifət üçün uğursuz və faciəvi oldu. Kütləvi qopmalarla yanaşı, funksionerlərarası qarşıdurmaların daha da gərginləşməsi müxalifət üçün böhran durumun ənənəvi xarakter daşıdığını göstərdi. Baxmayaraq ki, ilin sonunda İskəndər Həmidov, Pənah Hüseyn, Əvəz Zeynallı, Tural Abbaslı və digərləri dağınıq və pərakəndə halda olan müxalifətin birliyinə nail olmaq üçün “Müxalifətin zirvə toplantısı” deyilən toplantı keçirildi. Buraya AXCP, Müsavat, “REAL” və digər partiyaların qatılmaması toplantının nəticəsiz qalacağını göstərir. Söhbət etdiyimiz müsahiblərimiz də “zirvə” toplantısının heç bir nəticə verməyəcəyini, xaos və anarxiyanın davam edəcəyini bildirdilər.***

## Təkamül partiyasının sədri Teyyub Qənioğlu: “AXCP və Müsavatın əsas maliyyə qaynağı xaricdən alınır”



- Müxalifətin birlik modelinin ortaya qoya bilməməsinin səbəbini elə müxalifətin içində axtarmaq lazımdır. Yəni müxalifətçiliyin başladığı 1993-cü ildən bəri AXCP və Müsavat partiyaları özlərinin təşəbbüsü olmadan çağırılmış hər hansı bir müxalifət toplantısına qatılmayıblar. Səbəb isə, ondan ibarətdir ki, bu iki partiya özlərini müxalifətin aparıcı “ana partiyaları” hesab edirlər. Adları çəkilən bu partiyalar, hesab edirlər ki, bunların təşkilatçılığı olmayan hər hansı bir müxalifət partiyalarının toplantısı bunların ziyanına işləyə bilər, yəni onların “liderlik” ambisiyalarına kölgə sala bilər. İskəndər Həmidovun təşəbbüsü ilə çağırılan müxalifətin “zirvə toplantısı”nda bu iki partiyanın iştirak etməməsinin başlıca səbəbi budur. Bir sözlə, nə qədər ki, müxalifət daxilində mənəm-mənəmlik və ana müxalifət partiyası olmaq arzusu olacaqsa, müxalifətin birləşməsi mümkün olmayacaq. AXCP və Müsavat partiyalarının bir-birinə güzəştə getməməsi onların şəxsi ambisiyaları ilə bağlıdır. Hər kəs də bilir ki, AXCP və Müsavatın əsas maliyyə qaynağı xaricdən alınan maliyyə vəsaitləridir. Yəni öndə gedən partiyanın daha çox maliyyələşmə ehtimalı var. Ona görə də, müxalifət daxilində bu iki partiya biri digərindən öndə olmaq və xaricdən gələn maliyyənin əsas hissəsini özlərinə cəlb etmək məqsədləri var. Ümumiyyətlə, müxalifətin hakimiyyətə gəlmək şansı tamamilə yoxdur. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda da, yerdə qalır müxalifət daxilində liderlik uğrunda mübarizəyə... Yəni müxalifət daxilində liderlik istəyini saxlamaq üçün bir-biri ilə mübarizə aparırlar.

## Ədalət partiyasının aparat rəhbəri Mütəllim Rəhimli: “Müxalifət üzləşdiyi faciəvi durumdan çıxa bilməyəcək”



- Hər zaman müxalifətin irəli sürdüyü ideyalar elə ideya olaraq qalıb. Birləşmək, bir olmaq onların siyasi maraqlarına uyğun deyil. Keçirdikləri “zirvə toplantısı” da bir işə yaramayacaq. Sadəcə, ən azı, mətbuatın diqqətini özlərinə cəlb etmək üçün bu cür ucuz şoular düzəldirlər. Hər bir müxalifət yetkilisi özünü böyük siyasətçi, aparıcı partiya lideri hesab edir. Bu da müxalifətin birləşməsinə və güc mərkəzinə çevrilməsinə əngəl olan başlıca amillərdəndir. Hikkə və təkəbbür müxalifətin pərakəndəliyinə gətirib çıxarır. Hesab edirəm ki, köklü dəyişiklər edilməsə, müxalifət üzləşdiyi faciəvi durumdan çıxa bilməyəcək. Təbii ki, müxalifətdaxili birliyin alınmamasının günahkarı elə müxalifət düşərgəsində fəaliyyət göstərən qurumlardır. Ümumiyyətlə, AXCP və Müsavat kimi partiya liderlərinin şəxsi ambisiyaları onların bu cür birliklərə qatılmasına imkan vermir. Demək olar ki, AXCP və Müsavat partiyalarının fərqli siyasi yanaşmaları müxalifət düşərgəsinə zərbə vurub. Bundan həmin qurumlarda təmsil olunan sıravilər də zərər görüb.

***GÜLYANƏ***

# “2018-ci il Azərbaycan üçün uğurlu oldu”



“Başa vurduğumuz 2018-ci il də Azərbaycan üçün uğurlu oldu. Ötən il əldə edilən nailiyyətlər ölkəmizin beynəlxalq imicinin artması ilə yadda qaldı”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib. Ötən ildə Azərbaycanın dünya miqyasında dinamik inkişaf tempinə malik olan ölkələr sırasında aparıcı mövqeyini qoruyub saxladığını deyən deputat söyləyib ki, həyata keçirilən uğurlu siyasət Azərbaycanı güclü və milli maraqları qətiyyətlə qoruyan dövlətə çevirib.

T.Rzayev vurğulayıb ki, hazırda Azərbaycan Cənubi Qafqaz coğrafiyasının bütün parametrlər baxımından lider dövləti statusunu inamla daşıyır: “Respublikamızın ölkənin güclü potensialına əsaslanan və qlobal miqyasda meydana çıxan yeni çağırışlarla uzlaşan nümunəvi inkişaf modeli bütün dünyada yüksək qiymətləndirilir. Sözsüz ki, müasir geosiyasi vəziyyətdə, siyasi çağırışların və xarici risklərin mövcud olduğu dövrdə müəyyən edilmiş siyasi hədəflərə çatmaq o qədər də asan olmayıb. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezidentimiz cənab İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub”.

***Nailə Məhərrəmova***

# “Azərbaycan iqtisadiyyatı inkişaf etməklə bərabər özünü gələcəyə hazırlayır”



***“Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirdi ki, Azərbaycanda aparılan ciddi iqtisadi islahatlar öz nəticəsini verir.***

Azərbaycan iqtisadi cəhətdən son 15 ildə çox uğurlu bir yol keçib. Bir tərəfdən Azərbaycanın iqtisadiyyatı kəmiyyətcə böyüyüb, yəni, bizim ümumi daxili məhsulumuz (ÜDM) 3,2 dəfə artıb, qeyri-neft sektoru 2,8 dəfə artıb, strateji valyuta ehtiyatlarımız təxminən 28 dəfə artıb, digər tərəfdən Azərbaycanda 2 milyondan çox iş yeri yaradılıb”. Bunu SİA-ya açıqlamasında millət vəkili Tahir Mirkişili deyib.

Millət vəkilinin sözlərinə görə, Azərbaycanın infrastruktur layihələri çox böyük vüsətlə həyata keçirilib ki, bu da bütövlükdə həm qazlaşmada, elektrikləşmədə, həm də yol çəkilişində olub: “Bu gün Azərbaycan MDB-də ən yaxşı yolu olan ölkədir. Yəni kəmiyyətcə baxsaq, Azərbaycan iqtisadiyyatı çox möhtəşəm bir yol keçib. Hətta zaman-zaman Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünyada birinci yerə çatıb. Artıq bir çox beynəlxalq təşkilatların hesabatlarında, məsələn, Ümumdünya İqtisadi Forumunun verdiyi hesabatlarda, Dünya Bankının dərc etdiyi hesabatlarda Azərbaycan ən çox islahat aparan ölkədir və inkluziv inkişaf əmsalına görə dünyada üç ölkədən biridir. Yəni həm xaricdən, həm də daxildən baxanda Azərbaycan iqtisadiyyatının keçdiyi yol kifayət qədər uğurlu və kifayət qədər əhatəlidir.

Amma Azərbaycan iqtisadiyyatı kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyət cəhətdən də kifayət qədər yeniliklər, idarəetmədə yeni çevik modelin tətbiqi və iqtisadiyyatın daha dayanıqlı olması istiqamətində işlər görülür. Bütün bu işlərin, islahatların təbii ki, əsas ana xəttinin aparıcısı, ideya müəllifi cənab Prezident İlham Əliyevdir. Çünki Azərbaycan apardığı islahatla bir tərəfdən təbii ki, Ümummilli Lider Heydər Əliyevin neft strategiyasını davam etdirir. Bu strategiyada əldə etdiyimiz gəlirləri biz qeyri-neft sektorunun inkişafı üçün daha çox sərf edirik ki, bu da əslində iqtisadiyyatın gələcəkdə daha çox xarici amillərdən asılığının azadılması və insanların maddi-rifah halının hər hansı bir xaricdə baş verən iqtisadi böhranlardan asılı olmayaraq yaxşılaşmasını təmin etmək kimi anlama gəlir.”

***Ceyhun Rasimoğlu***



# GÜNAH, ONU TÖRƏDƏNDƏDİR...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***“Video-bloqer” pərdəsi altında insanlara şər-böhtan ataraq qanunları pozan və nəticədə qanunların tələbinə uyğun şəkildə cəza alan Mehman Hüseynovun üzərində qurulmuş, həmçinin, özünün də iştirak etdiyi növbəti oyunbazlığının da üstü açılıb. Demə ki, cəza çəkdiyi müəssisənin daxili tələb və qaydalarını pozduğuna görə, növbəti cəza almasının ardınca “siyasi mühacir”lərin və necə deyərlər, yerli müxalifətçilərin hay-haraylarını yerə-göyə sığmadı. Hətta iddialar irəli sürülməyə başlanıldı ki, demə, M.Hüseynov “müddətsiz aclıq” elan edib. Söz yox ki, bu oyunbazlıqların arxasında dayanan daha bir məqsəd isə, məhz Azərbaycan hakimiyyətinə qarşı atılan iyrənc addımların Qərb ölkələrində reallaşdırılması cəhdləridir. Əbəs deyil ki, M.Hüseynovun xaricdə yaşayan qardaşı E.Hüseynov dərhal avropalı ağalarının qucağına hoppanaraq, onlardan Azərbaycan dövləti əleyhinə bəyanatlar səsləndirməyi tələb etdi və...***

Və həmin avropalılardan bir-ikisi heç baş verən hadisənin nədən qaynaqlandığını dərk etmədən belə, Azərbaycan hakimiyyətinə qarşı kirli ağızlarını açaraq, köhnəlmiş, çeynənilmiş ifadələrini səsləndirdilər, yəni “narahat” oldular.

Demə, məlum olub ki, M.Hüseynov, ümumiyyətlə, nə aclıq edir, nə də hər hansı digər üsullarla etiraz aksiyası keçirir. Məsələ ondadır ki, saxta “video-bloqer”in, ümumiyyətlə, heç bir etiraz aksiyası keçirməməsini elə Penitensiar Xidmətin İctimaiyyətlə Əlaqələr şöbəsinin rəhbəri Mehman Sadıqov mətbuata açıqlamasında bildirib. “Mehman Hüseynov qida da, su da qəbul edir. Yaxınları ilə telefon vasitəsilə əlaqə də saxlayır. O, aclıq aksiyası keçirmir. Səhhəti də normaldır, qanunla nəzərdə tutulan bütün hüquqlarından tam istifadə edir”, deyə hay-haray qaldıranların iddialarına cavab olaraq bildirilib.

Onu da qeyd edək ki, Azərbaycan qanunlarının kifayət qədər humanizm prisniplərinə əsaslanmasını həbsdə olan M.Hüseynovun vəfat etmiş anasının yas mərasimində iştirak etməsi üçün azadlığa buraxılması ilə də sübut etmək mümkündür. Nədənsə, həmin ərəfədə ağızları köpüklənə-köpüklənə sosial şəbəkələrdə canlı yayıma çıxanlar bu barədə heç nə danışmadılar. Bax, məsələ də bundadır - yalnız qaragüruhçuluq və şər-böhtan üzərində ən rəzil addımlara gedərək, dövlətin maraqlarına qarşı qarayaxma kampaniyaları düzənləmək...

Yeri gəlmişkən, M.Hüseynovun cəzasını bitirməyinə 2 ay vaxt qalmasına rəğmən, onun həbsi üzərində oyunbazlıq edənlər indi də onun həbsinin “artırılacağı” ilə bağlı səs-küy salmağa başlayıblar. Halbuki hələlik, M.Hüseynovun cəzaçəkmə müəssisəsində orada xidmət keçən PX əməkdaşını döyməsi ilə bağlı cinayət işi üzrə məhkəmə keçirilməyib və istintaq gedir. Yəni məhkəmə olmamış qarşı tərəfin qara-qışqırıqları da anlaşılan məsələ deyil. Onlar anlamağa qadir deyillər ki, nəinki Azərbaycanda, elə çox bəh-bəhlə təriflədikləri Qərb ölkələrində də cinayət, cinayət olaraq dərk edilir, onu törədən isə kimliyindən asılı olmayaraq, cəzasını alır. Əgər M.Hüseynovun cəza çəkə-çəkə cinayət törətməsi sübuta yetirilərsə, bu zaman onun yenidən cəza alması mümkünlüyü ortaya çıxır. Lakin o, bunu etməyə, daha dəqiq desək, cəzasını bitirib, cəmiyyət sıralarına qoşulmaq imkanını əlindən buraxmaya bilərdi. Atalar demişkən, günah, onu törədəndədir...

# Ötən il bir-birini əvəz edən nailiyyətlər və uğurlarla xarakterizə edilir



***2018-ci ili ölkəmiz üçün uğurlu il hesab etməkdə hər kəs haqlıdır. Çünki yola saldığımız ildə ölkəmiz bütün istiqamətlər üzrə sürətlə inkişaf edərək, uğurlu nəticələr əldə edib. Bu nəticələr isə, onu deməyə əsas verir ki, Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib və bu da beynəlxalq miqyasda mövqelərimizin daha da möhkəmlənməsi deməkdir.***

Ötən il beynəlxalq müstəvidə Azərbaycanın uğurlu fəaliyyət sərgilədiyi heç cür inkar edilə bilməz və ikitərəfli əlaqələrimizin hansı səviyyədə, eyni zamanda, nə qədər geniş olması bunu təsdiq edir. Artıq qonşu ölkələrlə əlaqələrimiz daha yüksək səviyyəyə qalxıb və bu istiqamətdə ötən ilin nailiyyətləri özünəməxsus yer tutur. Qonşu dövlətlərlə siyasi, iqtisadi və digər sahələrdə aparılan birgə işlər bölgədə sabitliyin daha da möhkəmlənməsini şərtləndirir.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi də 2018-ci ildə öz həllini tapa bilib ki, bunun təkcə Azərbaycan üçün deyil, bütün Xəzəryanı ölkələr üçün də əhəmiyyəti olduqca böyükdür. Daha dəqiq desək, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, əslində, tarixi nailiyyətdir. Bu tarixi nailiyyət də, məhz ötən ilə təsadüf edir. Uzun illər ərzində həll olunmamış qalan bu məsələ, məhz yola saldığımız 2018-ci ildə öz həllini tapıb ki, bu məsələnin həllində öz dəyərli töhfəsini verən Azərbaycan üçün bu çox böyük uğur hesab olunur.

## İl ərzində iki dəfə keçirilən parad ölkəmizin hərbi qüdrətini təsdiq edir və hərbi potensialından xəbər verir

Artıq dünya miqyasında güclü ordular sırasında olan Azərbaycan Ordusu beynəlxalq miqyasda da diqqət mərkəzindədir. Ordu quruculuğu, hərbi hazırlıq və hərbi təchizat sahəsində ölkəmizin uğurlarını və nailiyyətlərini hər kəs etiraf etmək məcburiyyətindədir. Bu uğurların əldə edilməsində ötən, 2018-ci ilin də çox böyük payı var.

Əbəs yerə deyil ki, 2018-ci ildə ölkəmizdə iki dəfə hərbi parad keçirildi. Bunların hər biri bizim gücümüzdən, bizim güclü ordumuzun potensialından xəbər verir. İndi dünya ictimaiyyəti ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu haqqında məlumatlıdır və etiraf etmək lazım gəlir ki, ordumuz çox yüksək döyüş qabiliyyətinə malikdir. Azərbaycanın hərbi qüdrətini bir daha təsdiq etməyə biz 2018-ci ildə də, həmçinin, nail ola bildik.

Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil və tamamilə müstəqildir. Müstəqil olan Azərbaycan iqtisadiyyatı isə bizim müstəqil siyasətimizi gücləndirən ən vacib şərtdir. İqtisadi cəhətdən güclü, eyni zamanda, müstəqil olan Azərbaycan sosial layihələrin həyata keçirilməsi üçün də yetərli imkanlara malikdir. Əhalinin, ələlxüsus, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün bu imkanlar çox böyük əhəmiyyət kəsb edir. Məhz bu imkanlar sayəsində ğtən il ərzində qaçqın və məcburi köçkünlər üçün çox böyük işlər görülüb. Hesabat ili ərzində 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər, həmçinin, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün 626 mənzil tikilib və onlara təqdim edilib ki, son illərlə müqaisədə bu rəqəm rekord göstərici hesab olunur.

Ölkəmiz iqtisadi cəhətdən dinamik inkişaf tendensiyasına sadiqdir və ötən 2018-ci ildə bu ənənə uğurla davam etdirilib desək, yanılmarıq. İl ərzində ümumi daxili məhsulun artımı müşahidə edilib. Qeyri-neft sektorunun inkişafını isə, xüsusilə, vurğulamaq yerinə düşər. Sənaye istehsalı sürətli artım tempi ilə seçilməkdədir. Qeyri-neft sənaye sektorunda 9 faizdən çox artımın müşahidə edilməsi heç də sıradan bir göstərici deyil və bu nailiyyət də, məhz 2018-ci ilin nailiyyətlər sırasındadır.

İl ərzində ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulması, ixracın təxminən 40 faiz artması çox böyük göstəricidir. Bu göstəricilərin hər biri, sözsüz ki, görülən işlərin, aparılan islahatların, düzgün iqtisadi siyasətin məntiqi nəticəsidir. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" proqramının son hesabatlarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Dünya Bankının bu dəyərləndirməsi, daha dəqiq desək, ölkəmizin 25-ci yerə layiq görülməsi, 32 pillə irəliləməsi təsdiq edir ki, ölkəmizdə aparılan islahatlar, Azərbaycanda yürüdülən düzgün iqtisadi siyasət, mövcud şəffaf şərait qlobal miqyasda yüksək qiymətləndirilir.

## 2018-ci il ölkəmiz üçün müvəffəqiyyətlər ili kimi yadda qalacaq

Ötən ilin uğurlarından biri də "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı hesab olunur ki, bu çox böyük və eyni zamanda, həqiqətən də tarixi nailiyyətdir. Bu tarixi nailiyyətlər sırasına həmçinin ötən ilin iyun ayında rəsmi olaraq açılan TANAP layihəsi də daxildir. Çünki "Cənub Qaz Dəhlizi"nin tam başa çatması üçün çox gözəl imkanlar yarandı və bütün bunlar, məhz yola saldığımız hesabat ilində gerçəkləşdi. Bu gerçəkləşən layihələr isə, öz növbəsində, Azərbaycan xalqına bundan sonrakı onilliklər ərzində böyük faydalar və mənfəət deməkdir.

Hesabat ilində reallaşdırılan və açılışı olan qlobal layihələr sırasına Ələt Ticarət Limanı da daxildir. Ötən il açılışını qeyd etdiyimiz Ələt Ticarət Limanı, sözün həqiqi mənasında, çox böyük tarixi layihə hesab olunur. Belə ki, bu liman vasitəsilə artıq Azərbaycan, nəinki regionun, Avrasiyanın çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Artıq Şimal-Cənub, Şərq-Qərb dəhlizləri ölkəmizin ərazisindən keçir. Bu isə, o deməkdir ki, çox güclü nəqliyyat infrastrukturu bizə geniş imkanlar yaradacaq. Daha dəqiq desək, ölkəmizin tranzit imkanları çox böyük səmərə üçün vacib amil hesab olunur və yaxın gələcəkdə faydasını görəcəyimiz günün reallığıdır.

Ümumiyyətlə, ötən hesabat ilini, bir-birini əvəz edən nailiyyətlər, uğurlar xarakterizə edir və bu baxımdan, 2018-ci ilun yekunları, onu deməyə əsas verir ki, həmin il ölkəmiz üçün müvəffəqiyyətlər ili kimi yadda qalacaq. Bir sözlə, ötən il ölkəmiz üçün uğurlu hesab olunur. Nəzərə almaq lazımdır ki, belə müsbət dinamika da, öz növbəsində, inkişafı, irəliləyişi şərtləndirir və bu baxımdan, cari ilin də ölkəmiz üçün uğurlu və müvəffəqiyyətli olacağı zərrə qədər şübhə doğurmur.

***İnam HACIYEV***



# 2018-ci ildə Azərbaycanın iqtisadi UĞURLARI

***Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa təbrikində də söylədiyi kimi 2018-ci ildə ölkəmizdə bütün sahələr, ən əsası da iqtisadiyyatımızda mühüm uğurlar əldə edilib. 2018-ci ildə ümumi daxili məhsulunda, qeyri-neft sektoru, sənaye istehsalı artmaqla yanaşı, ixracımız təxminən 40 faiz artıb.***

Ötən ilin iqtisadi uğurlarını iqtisadçılar SİA-ya şərh edib. Milli Məclisin deputatı, **iqtisadçı Rüfət Quliyev** deyib ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olub və bu il ölkənin dinamik inkişafı davam edib: "Bunu il ərzində iqtisadi sahədə əldə olunan uğurlar, statistik göstəricilərdən, beynəlxalq reytinqlərdə yerimizdən də açıq şəkildə görmək mümkündür".



O bildirib ki, cari ildə əldə olunan makroiqtisadi stabillik böyük nailiyyətlərdən biridir. Onun sözlərinə görə, Cənub Qaz Dəhlizinin açılışının 2018-ci ilə təsadüf etməsi, eləcə də bu dəhliz vasitəsi ilə mavi qazın Türkiyə bazarına ötürülməsi bu ilin ən mühüm iqtisadi uğurlarından hesab oluna bilər: " Bu il digər ölkələrlə müqayisədə milli valyutamızın stabil qalması da önəmli hadisələr sırasına aid edilə bilər. Azərbaycan neft ölkəsi olmasına baxmayaraq, bu il qeyri-neft sektorunun inkişafı və xüsusilə də kiçik və orta sahibkarlıq istiqamətində ciddi addımlar atıldı, uğurlar əldə olundu".

Bu ilin mühüm islahatlarla yadda qaldığını deyən R.Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin də söylədiyi kimi bu islahatların əksər hissəsi 2019-cu ildə öz nəticəsini verəcək: "Maliyyə bazarında stabillik yarandı. Azərbaycan iqtisadiyyatının 2018-ci ildə təxminən 1.5 faiz artması cari ilin iqtisadi göstəricilər baxımından uğurla başa vurduğumuzun göstəricisidir. Bu il büdcə tapşırıqları tam şəkildə həyata keçirilib".

**İqtisadçı Vüqar Bayramov** isə bildirib ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı stabilliyini qoruyub saxlaya bildi, eyni zamanda iqtisadiyyatda artım qeydə alındı. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının 2018-ci ildə təxminən 1 faiz artması 2017-ci ildə əldə edilən stabillikdən sonra iqtisadi inkişafın bərpası kimi baza artım olaraq xarakterizə olunur: "Çünki növbəti illərdə Azərbaycan daha yüksək iqtisadi artım əldə edə biləcək".



V.Bayramov söyləyib ki, beynəlxalq maliyyə qurumlarının proqnozuna əsasən 2019-cu ildə Azərbaycan iqtisadiyyatındakı artım tempi 3,6 faizə qədər yüksələcək. 2018-ci ilin Azərbaycan və region üçün əhəmiyyəti olan bir sıra beynəlxalq layihələrin reallaşması ilə yadda qaldığını deyən ekspert qeyd edib ki, Cənub Qaz Dəhlizinin açılışının 2018-ci ilə təsadüf etməsi, eləcə də bu dəhliz vasitəsi ilə mavi qazın Türkiyə bazarına ötürülməsi cari ilin iqtisadi baxımdan ən yadda qalan hadisələrindən biri oldu: "Praktiki olaraq Cənub Qaz Dəhlizinin Avropa hissəsinin də inşaatı başa çatmaq üzrədir və Azərbaycan bu dəhliz vasitəsi ilə Türkiyəyə əlavə olaraq 8 milyard kubmetrə yaxın mavi qaz, Avropaya birinci mərhələdə 10 milyard, ikinci mərhələdə isə 20 milyard kubmetrdən artıq mavi qaz nəql edəcək. Bütövlükdə Cənub Qaz Dəhlizi vasitəsi ilə Avropa və Türkiyəyə ötürüləcək mavi qazın həcmi 31 milyard kubmetr olacaq. Bu da Azərbaycana mövcud qiymətlər ilə 150 milyard dollara yaxın gəlirin daxil olması deməkdir".

V. Bayramov qeyd edib ki, 2018-ci ildə eyni zamanda qeyri-neft sektorunda da bir sıra layihələr reallaşıb: "Belə ki, sənaye parklarının açılması xüsusən regionlar üçün əhəmiyyətli olan layihələrin icrası kimi xarakterizə olunur. Ümumilikdə götürsək isə, 2018-ci il əvvəlki ildə əldə edilən stabilliyin iqtisadi artıma çevrilməsi ili kimi yadda qaldı. Bu növbəti illərdə daha sürətli iqtisadi artım üçün baza formalaşdırır".

***Nailə Məhərrəmova***

# Erməni alim "qan ağlayır"

*Qriqor Barseqyan: "Növbəti dəfə kimsə rükzakla küçələrə çıxıb inqilab edəcəksə, ondan soruşulmalıdır ki..."*

***"Ermənistan qiymətsiz və nadir təcrübə əldə edib. Elə bir təcrübə ki, ölkə, nəinki talançı hakimiyyətlər, xalqın seçimi ilə hakimiyyətə gəlmişlərin - kadr seçimində öncədəngörmə qabiliyyəti olmayanların vasitəsi ilə dağıla bilər".***

Bu barədə Ermənistanın "largir.am" saytında "Erməni mütəxəssisləri şurası"nın sədri, elmlər doktoru, Mariya Küri adına beynəlxalq elmi mükafat sahibi Qriqor Barseqyan Nikol Paşinyan hakimiyyətinin buraxdığı səhvlərlə bağlı məqaləsində yazıb. SİTAT: "Bundan dərs götürərək, qənaətə gəlməliyik ki, növbəti dəfə kimsə rükzakla küçələrə çıxıb inqilab edəcəksə, ondan soruşulmalıdır: "Qardaş, sən ölkənin inkişafını necə görürsən və bu inkişafa kiminlə nail olacaqsan".



### "Bu hal 8 aylıq dövrdə uzana-uzana getməkdədir"

"Elmdəki vəziyyətə nəzər salaq", deyə yazan erməni elm adamı qeyd edir: "Əvvəlki hakimiyyət elmi necə idarə edirdi. Onlar brutal şəkildə və həyasızlıqla öz adamlarını hakimiyyətə bağlı olan elmi mövqelərə - Elmlər Akademiyasına, nazirliyə, Elmi Komitəyə təyin edirdilər. Məmurlardan elmi problemlərin anlayışı, bilikləri və nəzər nöqtələri ətrafında heç bir tələblər olunmurdu və onlara hakimiyyət piramidalarında hər şeyə icazə verilirdi. Nəticədə, elmi reanimasiya küncünə göndərdilər.

Bax, belə vəziyyətdəki elmi Nikol Paşinyan öz naziri Araik Arutunyanla birgə qəbul edib. Hər hansı bir görüntü yarandımı? Yox. Hər hansı işin anlayışı ilə bağlı bir nümayiş oldumu? Yox. Heç bir düşüncə nə yazılı, nə də şifahi halda təqdim edilmədi və bu hal 8 aylıq dövrdə uzana-uzana getməkdədir. Bundan əlavə, mən (beynəlxalq elmi mükafatın sahibi) Arutunyana islahatlar sxemini təqdim etdim. Tam şəkildə rədd edildi. Heç bir müzakirə və heç bir reaksiya belə olmadı".

### "Bu da sizə mütəxəssislə məmur arasındakı fərqin göstəricisi!"

Qriqor Baresqyan xatırladıb ki, onun elmi islahatlar sxemləri İngiltərənin, Çinin universitetlərində, Gürcüstanın Elmlər Akademiyasında məruzə edilərək, müzakirələrə çıxarılıb: "Lakin Araik Arutunyan isə, demə qaldırılmış məsələləri müzakirəyə çıxarmaq istəmirmiş. Bundan əlavə, nazir elmi yazıq vəziyyətə gətirənlərdən birini və əsas təqsirkarı (Samvel Arutunyanı) komitəyə sədr təyin edib. Nazirin məni anlamaması səviyyəsini nümayiş etdirmək üçün onunla keçirdiyim 40 dəqiqəlik görüşümdə epizod olaraq, yeganə fikrini çatdırmaq istərdim: "baxın görün, Samvel Arutunyanın nə qədər yaxşı CV-i (karyera məlumatları) var". Mən ona dedim ki, bu CV ilə tanışam və onun sahibi faktiki avantüristliyi əks etdirir. Ardınca, mən ona çoxkomponentli fikirlərimi əsaslı şəkildə izah etdim. Bax, bu da sizə mütəxəssislə məmur arasındakı fərqin göstəricisi!"

Erməni alim yazısında ölkədə elmin məhv olduğunu qeyd etməklə yanaşı, hazırkı hakimiyyətin bu məhvi sürətləndirdiyini yazıb, eləcə də, mətbuatı, ictimai rəyi sözügedən məsələdə fəal olmağa, hakimiyyətdən və nazirdən hesab soruşmağa çağırıb.

***Rövşən NURƏDDİNOĞLU***

## Yeni ildə Ermənistanda vergilər artırılıb



2019-cu ildən Ermənistanda yeni vergilər tətbiq olunub. Hökumət bəzi mal və xidmətlərə olan vergiləri artırıb, bir sıra məhsullara isə aksiz vergisi tətbiq olunub. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, yeni ildə spirtli içkilər və siqarete tətbiq olunan aksiz vergiləri artırılıb. Araq üçün alınan aksiz vergisi 73 faizdən 84 faizə, siqaretlərin hər min ədədi üçün vergi isə 15 dollardan 17,24 dollara qaldırılıb. Bundan başqa, tərkibində yüksək miqdarda şəkər olan içkilərə də 10 faiz həcmində aksiz vergisi tətbiq olunacaq.

Mühərrikinin həcmi 300 at gücündən çox olan avtomobillər üçün vergilər də 3 dəfə artırılıb. Ermənistan hökuməti bunu ekoloji məqsədlə etdiyini açıqlasa da, ekspertlər artımın büdcə kəsirini doldurmaq üçün edilməcəyini bildirirlər. Maliyyə Nazirliyi daşınmaz əmlak üçün vergilərin artırılması istiqamətində iş aparıldığını da bəyan edib. Ekspertlərin əksəriyyəti bildirib ki, yeni ilin ilk aylarında Ermənistanın yeni hökumətinin seçkiqabağı populist vədlərinin çoxunun real olmadığı məlum olacaq.

## "Rusiya indiki Ermənistan rəhbərliyini qəbul etmir"



**"Paşinyanın Rusiyaya səfəri uğursuz, nəticəsiz və utancverici olub. Ümumiyyətlə hamıya məlumdur ki, Rusiya indiki Ermənistan rəhbərliyini qəbul etmir. Çünki tamamilə əvvəlki rəhbərlərdən başqa bir siyasi kurs götürüblər". Bunu SİA-ya açıqlamasında politoloq Məhərrəm Zülfüqarlı deyib. Politoloqun sözlərinə görə, yeni Rusiyanın bilavasitə yaxını olan Ermənistanın əvvəlki prezidentinin həbs olunması və həbsdə olan prezidentə Putinin təbrik göndərməsi, Paşinyanın müxtəlif manevr etməsi (yəni bir gözü qərbdə, bir gözü Rusiyada olması) artıq rəsmi Moskvanı qane etmir: "Ermənistan forpost ölkədir. Rusiya tam arxayın olmalıdır ki, bu forpost ölkə Rusiya öl deyəndə öləcək, qal deyəndə isə qalacaq".

Amma Paşinyanın indiki siyasəti fərqli olduğuna görə, Rusiya rəhbərliyi də onu qəbul etmir. Ona görə də bu soyuqluq əvvəldən də məlum idi. Meydandan hakimiyyətə gələn Paşinyan verdiyi vədlərə də əməl edə bilməyəcək. Çünki o arxayındır ki, Avropa Birliyindən alacağı müəyyən maddi yardımla problemlərini həll edəcək, islahat keçirəcək. Amma onlar da o yardımı vermək üçün şərtlər irəli sürürlər ki, ən azı Rusiya hərbi bazaları Ermənistandan çıxmalıdır. Bu mənada hesab edirəm ki, Paşinyanın uğursuzluğu göz önündədir. Bu sərt qışdan Ermənistan əhalisi faciələrlə üzləşəcək. Artıq Rusiya da Ermənistana verdiyi qazın qiymətini artırdı. Yəqin ki, bu da yazda növbəti hakimiyyət böhranına gətirib çıxaracaq".

## "Ərazi bütövlüyünün qorunması Türkiyənin İraq siyasətinin təməlini təşkil edir"



İraq Prezidenti Berhem Salih Türkiyədə rəsmi səfərdədir. Ankarada aparılan müzakirələrdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İraq Prezidenti Berhem Salih birgə mətbuat konfransı keçiriblər. İki qonşu dövlət arasında səmərəli əməkdaşlıq üçün geniş imkanların olduğunu diqqətə çatdıran dövlət başçıları danışıqların tərəflər üçün əhəmiyyətli olduğunu vurğulayıblar.

2013-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 16 milyard ABŞ dolları məbləğində olduğunu bildirən Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, bu göstəricinin 20 milyarda yüksəldilməsi hədəflənir. İŞİD, PKK və FETÖ terror təşkilatlarının hər iki ölkə üçün təhdid mənbəyi olduğunu qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, ərazi bütövlüyünü qorunması Türkiyənin İraq siyasətinin təməlini təşkil edir. Rəsmi Ankara ilə əməkdaşlığın İraq üçün böyük əhəmiyyət daşıdığını qeyd edən Prezident Berhem Salih əminliklə bildirib ki, terrordan viran qalan bölgələrin bərpasında Türkiyə tərəfi köməkliyini əsirgəməyəcək.



**Təhmasib Novruzov**

## Köhnə Jirinovskinin yeni sayıqlaması

***Rusiya siyasətində Jirinovski deyilən məşhur bir "parapolitoloq" var. Bu adamcığaz hər zaman müxalifət sayıqlamalarilə gündəmdə qalmağı çox sevir. Olsun, sözüm onda deyil, çünki bizim bəzi müxalifət oyunbazlarımızın çörəyi antidövlət fəaliyyətdən çıxdığı kimi, bu bədbəxt də başqa yolla qazana bilmir. Çörəyi belə-belə sayıqlamalardan çıxır.***

Sözüm ondadır ki, bu gədənin, bilmirəm, türklər nəyini neyniyib ki, bu millətə qarşı bu qədər aqressivlik nümayiş etdirir?!. Təzə ilin elə ilk günlərində sosial şəbəkələr bu zatıqırığın təp-təzə çıxışını buraxdılar dövriyyəyə. Yəqin oxucularımızın əksəriyyəti bu çıxışdan xəbərdardırlar. Amma xəbərdar olmayanların da xəbərdar olması xətrinə onun çıxışındakı bəzi məqamları diqqətə çatdırmaq istəyirəm. Bu "parapolitoloq", həmişə olduğu kimi, yenə səsini alıb başına ki, ay dadi-bidad, niyə yatmısınız, türklər birləşir, TURAN yaranır, İranla da dostlaşır, avrasiyanın, o cümlədən, Rusiyanın nəzarətində olan ölkələrin yarısı birləşib, TURAN BİRLİYİ yaradır. Hələ, bilmirəm, çaşqınlıqdanmı, ya nədənsə, Tatarıstanın, Başqırdıstanın da adlarını qatır bu ölkələrin siyahısına. Dediklərindən məlum olur ki, türk dünyasının birləşməsindən bu binəva niyə əndişələnir! Əvvəl-əvvəl düşünmək olar ki, Rusiya və xristian dünyası üçün narahat olub da, həyəcan təbilini işə salır. Amma sonra məlum olur ki, onu heç də Rusiya, ya da xristian dünyası maraqlandırmır. Sən demə, bu birliyin dünyaya gətirəcəyi ən böyük "faciə" ermənilərin tapdaq altında qalması qorxusuymuş. Və elə bu yerdə xristianlıq adından danışır ki, biz xristian ermənilərini müsəlmanların ortasında tək qoymamalıyıq... Elə burdaca sifarişin erməni lobbisindən verildiyi gün kimi aydın olur. Zatən, bu məxluq pula danışanın biridir, kim pul versə, onun üçün hürməyə çoxdan adət eliyib. Xülasə, yadıma 1991-ci ildə bir erməninin Amerikada əlindəki çubuqla Ermənistanı və onu əhatə edən müsəlman dövlətləri göstərib, xristian dünyasını onlara dəstək verməyə çağırdığı düşdü. Amma onu demədi ki, xristian dünyasının qovub ərazilərindən çıxardıqları qaraçı-hay tayfaları, məhz Osmanlı-müsəlman xilafətinin qoltuğuna sığınıb, özlərini millət kimi dünyaya sırımağa nail oldular. İndinin özündə də, erməni siyasilərinin özlərinin də dəfələrlə etiraf etdikləri kimi, Azərbaycana - müsəlman ölkəyə vurduğu ağılasığmaz zərbələrə rəğmən, məhz müsəlman dövləti olan İranın verdiyi nəfəs borusu hesabına bu gün ayaqda qala bilir. Ermənisan adlanan ölkə (əlbəttə, əgər buna "ayaqda qalmaq" demək olarsa). Nədən bu "parapolitoloq" ermənilərin törətdiklərini unutdurmağa, onlara ola biləcək hücumlara bu qədər önəm verilməsinə çalışır? Olmuşlardan danışmaq bir siyasət adamı üçün daha səmərəli düşüncə ortaya qoyulmasına yardım edər, nəinki olacaqlardan danışmaq. Söz yox, ermənilər gec-tez dünya qarşısında törətdikləri bəşəri cinayətlərə görə cavab verəcəklər. Ancaq belə məsələlər Türk birliyi kimi nəhəng köklərə əsaslanan bir qurumun bəşəri düşüncəsinə daxil olmayan cılız məsələdir. Bu birlik təkcə türklərin və müsəlmanların xilasına deyil, bəşəriyyətin xilasına yönəldilən birlikdir. Jirinovski və onun kimilər bir az tarixi öyrənsələr, görərlər ki, türklər dünyanı idarə etdiyi dönəmlərdə heç bir xalqa qarşı kütləvi qırğın siyasəti həyata keçirməyib, heç bir xalqın torpaqlarını işğal etməyiblər. Sadəcə, düzəni pozulmuş dünyanı düzənə qaytarmaq üçün ölkələri haqq yoluna qayıtmağa vadar ediblər ki, bu da dünyanın xilası missiyasıdır. Müqəddəs dini kitablarda da göstərilib ki, türklər Tanrının yer üzərindəki vuran qoludur. Yeni deməli dünyanı düzənə qaytarmaq missiyası, sadəcə, nə Türkiyənin, nə türk əsilli digər ölkələrin istəyi deyil. Bu, Tanrının türklər üzərinə qoyduğu İlahi missiyadır. Amerikalı politoloq Farli və onun kimi bəzi siyasətçilər, eyni zamanda, gələcəkdən xəbər verən görücülər dönə-dönə dünyanın məhvolma təhlükəsi ilə üzüzə qaldığını deyirlər. Belədə kimsə bu fəlakətdən bəşəriyyəti xilas etməlidir, ya yox? Bu missiya da türklərin üzərinə qoyulubsa, bundan imtinamı edilməlidir? Yəni türklər bütün bəşəriyyəti xilas edəcəksə, dolayısı ilə həm də xristianları, o cümlədən, rusları və ağlı başından qopan hayları da xilas edəcək. O zaman elə Jirinovski və onun kimi digər türk düşmənləri də Məhşər bəlasından xilas edəcək. Bunun nəyi pisdir axı?!.

# 2019-cu ildə turizmin inkişafına daha geniş perspektivlər açılacaq

***Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirir. Ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqamətində də təqdirəlayiq işlər görülmüşdür. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Dünya təcrübəsi göstərir ki, turizm inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30%-ə qədəri turizm fəaliyyəti ilə bağlıdır.***



Son zamanlar ölkəmizdə qeyri-neft sektoruna diqqət artıb. Xüsusilə də, turizmin inkişafına həm dövlət, həm də özəl sektorun marağı böyükdür. Və bu istiqamətdə ardıcıl olaraq addımlar atılır. Artıq 2018-ci ili başa vurub, 2019-un ilk günlərini yaşayırıq. Ötən il ölkəmizin iqtisadi inkişafına gəlir gətirən sahələrdən olan turizm sektoru nə ilə yadda qaldı, hansı dəyişikliklər baş verdi.





2018-ci ilin yadda qalan hadisələrindən olan Azərbaycanın altı xarici ölkədə - Almaniya, BƏƏ, Səudiyyə Ərəbistanı, Çin, Hindistan və Rusiyada rəsmi turizm nümayəndəliklərinin açılması oldu. Bu nümayəndəliklər ölkənin xaricdə daha çox tanıdılmasına nail olmaq, hədəf bazarlardan turist axınını artırmaq, ümumilikdə, ölkədə turizmin inkişafına dəstək vermək məqsədi daşıyırlar.

2018-ci il oktyabrın 18-də Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə keçirilən ilk Milli Turizm Sammitində Azərbaycanın yeni milli turizm brendi təqdim olundu. Yeni brendin əsas simvolları bir-biri ilə əlaqəli şəkildə təqdim olunan yeni loqo və şüardır. Azərbaycanın yeni turizm loqosu olan "A" hərfi "Azərbaycan" sözünün ilk hərfi olmaqla yanaşı, öz formasına görə də brendin mahiyyətini çatdırır. Loqo daim yenilənəcək və təqdim olunacağı platformaya uyğunlaşdırıla biləcək. Azərbaycanın yeni turizm brendinin "Yenidən fərqli baxışla bax" əsas şüarına uyğun olaraq diqqətlə və yenidən baxdıqda, loqo barədə daha dəqiq təsəvvürə malik olmaq mümkündür.

### YAY TURİZMİ İLƏ YANAŞI, QIŞ TURİZM BAZASININ YARADILMASI, MÖVSÜMLÜK ANLAYIŞINI ARADAN QALDIRIB

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla və davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə "Şahdağ" Milli Parkının ərazisində yerləşən "Şahdağ" Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, "Şahdağ" Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, yeni körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüşdür.

Ötən ilin dekabrında turistlərin ən çox səyahət etdikləri məkan olan "Şahdağ" Turizm Mərkəzində artıq yeddinci qış mövsümünün açılışı oldu. Hazırlıq işlərini uğurla tamamlayan mərkəz yeni mövsüm üçün turistlərin ixtiyarına verilib. "Şahdağ" Turizm Mərkəzi hər mövsümün açılışında turistləri yeniliklərlə və xoş sürprizlərlə qarşılayır. Dörd növdə 15 ədəd kanat xətti, 13 sürüşmə yamacı xizək və snoubord həvəskarlarının ixtiyarına verilib. İstirahət kompleksində xizək və snoubord sürmə ilə yanaşı, aeroxizək və kvadrosikl turları, ziplayn, peyntbol, at üstündə gəzinti, uşaqlar üçün kirşələr, buz meydançası kimi 13 növ qış əyləncəsi təşkil edilib. Bu mövsümdə əlavə bir neçə xizək zolaqlarının salınması da nəzərdə tutulur. Dəniz səviyyəsindən 1435-2351 metr hündürlükdə yerləşən və ən yüksək standartlara cavab verən "Şahdağ" Turizm Kompleksində bu mövsüm, ilk dəfə olaraq, qonaqların əyləncəsini və rahatlığını təmin etmək üçün kinoteatr, gecə klubu, supermarket və digər əyləncə iaşə nöqtələri istifadəyə verilib. Turizm mərkəzində təklif olunan qiymətlərdə də yeniliklər var.

Azərbaycanda turizmin inkişaf tempi, onu deməyə əsas verir ki, ölkəmizdə davamlı inkişaf tendensiyası uğurla həyata keçirilmişdir. Bunu faktlar da sübut edir. Statistikaya nəzər salsaq, görərik ki, 2018-ci ilin yanvar-noyabr ayları ərzində, Azərbaycana səfər etmiş əcnəbilərin sayı 2017-ci ilin analoji dövrü ilə müqayisədə 6% və ya 151 min nəfər artıb, bununla da, sərhədlərimizi keçən səyahətçilərin sayı təxminən 2,5 milyona çatıb. Rusiya, Gürcüstan və Yaxın Şərqdən gələn səyahətçilərin sayı 2018-ci ilin müvafiq müddətində Azərbaycana gəlmiş səyahətçilərin ümumi sayının 65%-ni təşkil edib.

Heç şübhəsiz ki, ölkədə turizm sektorunun inkişafına təsir göstərən amillərdən biri, bu sahədə infrastrukturun yaradılmasıdır. Ancaq bununla yanaşı, sabitlik də əsas şərtləndirici rola malikdir. Çünki turistlər, bir qayda olaraq, özlərini daha güvənli və təhlükəsiz hesab etdiyi ölkələrə səfər etməyə üstünlük verirlər. İldən-ilə ölkəyə gələn turistlərin sayında artım qeydə alındığına diqqət yetirsək, o zaman turistlərin, məhz sabitlik baxımından, Azərbaycana səfər etdiklərini də qətiyyətlə söyləyə bilərik. Məlum olur ki, həm yaradılan infrastruktur, həm də ictimai-siyasi sabitlik xarici turistlərin Azərbaycana olan marağının artmasına təsir göstərir. Onu da xüsusi qeyd etmək lazımdır ki, son illərdə ölkəmizdə birbirinin ardınca keçirilən beynəlxalq idman, mədəniyyət və humanitar tədbirləri də Azərbaycan barədə beynəlxalq aləmdə, dünyada, ayrı-ayrı ölkələrdə və onların vətəndaşlarında maraq yaradır. Bu maraq isə, onların Azərbaycana səfərlərini şərtləndirən amillərdən birinə çevrilir.

**ZÜMRÜD BAYRAMOVA**

---

## Baş katib: Azərbaycan OPEK əməkdaşlıq Bəyannaməsinin reallaşmasında aparıcı rol oynayır



Azərbaycan OPEK əməkdaşlıq Bəyannaməsinin reallaşdırılmasında aparıcı rol oynayır. Bu barədə Trend-ə özəl olaraq təşkilatın Baş katibi Məhəmməd Barkindo deyib.

Baş katib vurğulayıb: "Bu prosesə göstərdiyi fəal dəstəyə və töhfəsinə görə Azərbaycana minnətdarıq, ümid edirik ki, əməkdaşlığımız daha da genişlənəcək".

M.Barkindo əlavə edib ki, ötən il iki dəfə Bakıda səfərdə olub, səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və digər rəsmilərlə görüş keçirib. OPEK baş katibi Azərbaycanın mərhum energetika naziri Natiq Əliyevi xatırlayıb: "Mərhum nazir (sabiq energetika naziri) Natiq Əliyevin xatirəsini xüsusi hörmətlə anmaq və demək istərdim ki, əməkdaşlıq haqqında Bəyannamənin hazırlanmasında Natiq Əliyev əsas şəxs olmuşdu".

## Nazirlik açıqladı: "Müəllimlik ixtisasını seçənlərin sayı artıb"

2018-ci ildə 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını seçənlərin sayı 2090 nəfər olub. Təhsil Nazirliyindən bildirilib ki, bu, 2013-cü ilə nisbətən 2,3 dəfə, əvvəlki ilə nisbətən isə 53,6 faiz artım deməkdir. Bundan əlavə, ötən il 25 mindən çox müəllim modul-kredit sisteminə əsaslanan təlimlərə cəlb edilib.



## Roma Papasının Birləşmiş məsanı 120 min nəfərə yaxın insan ziyarət edəcək



Roma Papası Fransiskin Birləşmiş Ərəb Əmirliklərinə səfəri çərçivəsində fevralın 3-dən 5-dək pontifikin Əbu-Dabidə nəzərdə tutulmuş ibadətini 120 minə yaxın insan ziyarət edə biləcək. İbadət "Zayed Sports City" stadionunda təşkil ediləcək. Roma Katolik Kilsəsi başçısı tarixdə ilk dəfə olaraq Birləşmiş Ərəb Əmirliklərinə səfər edəcək. Daha əvvəl yayılan xəbərlərdə bildirilmişdi ki, pontifikin Birləşmiş Əmirliklərə səfəri müxtəlif konfessiyaların nümayəndələri arasında tolerantlıq və dözümlülük ideyalarının təşviqi məqsədi ilə həyata keçiriləcək.

TƏRS BAXIŞ

# Əli Kərimli bu dəfə kimi "boykot" etdi - Şaxta Baba və Santa Klaus məsələsi

*Yaxud dişlədilər, didişdilər, diddilər...*

**Dağıdıcı müxalifətin hansı səmtə gedib, uğur qazanmaq istəyinin hələ də xəyal olaraq qalmasında daha çox günahkar göstərilən tərəfin AXCP sədri Əli Kərimlinin olması kimsəyə sirr deyil.**




Lakin gəlin görək, bu kimi məsələlərdə günahkar həqiqətən də yalnız Ə.Kərimlidirmi? Uzun illərdi ki, ənənəvi və naftalin qoxusu verən düşərgənin daxilində və xaricində İ.Qəmbərin, R.Quliyevin, A.Hacılının və sairlərin var-gəl etmələrinə rəğmən, ortaya bir şey çıxara bilməmələri sözün əsl mənasında onların başağrılarına çevrilib. Belə başağrılarından biri də AMDP-nin sədri İsgəndər Həmidovdur ki, özü öz başına oyun açıb. Daha dəqiq desək, "zirvə" deyilən müxalifət "birliyini" bir araya gətirib, "liderlik" sevdasına düşən AMDP sədri elə ilk dəfədən "uzun illərin müxalifətçi dostları" adlandırdığı şəxslər tərəfindən bir kənara atıldı. Baxmayaraq ki, xəstə olub, xəstəxanaya düşəndə, artistcəsinə onu yoluxmağa gedənlərdən və sosial şəbəkədə şəkil paylaşanlardan biri də elə Ə.Kərimli idi...

Lap yerinə düşən bir məsəl kimi... Şaxta Baba ilə Santa Klausun yola getməməsinə bənzəyən nifaq AXCP sədri Ə.Kərimlinin və onun kimi digər "liderlərin" əsas məqsədləri olaraq qiymətləndirilə bilər. Hətta kimsə müsbət yönlü ideya verərsə belə, həmin ideya dərhal "müxalifətə arxadan vurulan zərbə" adlandırılır və bu məsələdə də hansı məqsədlərin dayanması kimsəyə sirr deyil.

## Danılmaz faktdır ki, pul-para üstündə bir-birlərinin üzlərinə, şərəflərinə belə tüpürməyə hazırdırlar, hətta tüpürürlər də...

Bu gün Avropadakı "müxalifət" deyilən əndrəbadilərin belə, bir-birləri ilə yola getməmələri, fakt olaraq ortaya qoyulub. Vidadi İsgəndərlinin Qurban Məmmədovla, Tural Sadıqlının Məhəmməd Mirzəli ilə, Orduxan Teymurxanın Emin Milli ilə qarşıdurmalarının da arxasından bənzər məsələlər çıxır. Bu gün onların heç biri bir-birlərini nə həzm edir, nə də digər məsələlərini qəbul edirlər. Çünki ortada qrant (!) məsələsi var və bu, danılmaz faktdır ki, pul-para üstündə bir-birlərinin üzlərinə, şərəflərinə belə tüpürməyə hazırdırlar, hətta tüpürürlər də...

Əlbəttə ki, bu yanaşma onlara elə ənənəvi müxalifət "liderlərindən" keçib desək, yanılmarıq. Məhz bu kimi məsələlərdə fərqlənməyən avropalı və yerli "müxalifətçilər" eyni baxışları bölüşməkdədirlər.

## Buna sübut olaraq, "n" qədər misal gətirmək mümkündür

Necə ki, Ə.Kərimli İ.Həmidovun "zirvəsini" rədd edib. Əbəs deyil ki, sosial şəbəkələrdə "müxalifətin birliyindən" dəm vuran AXCP sədri "müxalifət zirvəsi" haqqında nəzarətində olan səhifələrində bir cümləyə belə yer vermədi. Hətta bununla yanaşı, o öz trolları vasitəsilə İ.Həmidovun "zirvəsi" haqqında canlı yayımlara, müzakirələrə hücumlar təşkil edir, orada iştirak edənləri təhqir etdirirdi. Buna sübut olaraq, "n" qədər misal gətirmək mümkündür. Təkcə, həmin ərəfələrdə yazılan rəylərə diqqət yetirsək, nəyin-nəcə olduğunu görə bilərik.

Belə bir vəziyyətdə suallar meydana çıxır ki, hər zaman olduğu kimi, müxalifəti daxildən parçalayan Ə.Kərimli bu xisləti ilə müxalifəti birləşdirmək iddiasından da əl çəkmir. Hər halda, onun "Milli Şura" deyilən milli qurumdan kənarda müxalifətçilik edənləri həqiqi müxalifət kimi tanımadığını bəyan etməsi faktı onun riyakar məqsədlərinin məntiqi göstəricisi olaraq qiymətləndirilməlidir.

Rövşən RƏSULOV

***P.S. Yeri gəlmişkən, İskəndər Həmidovun yanındakılar haradan bilsinlər ki, Əli Kərimli Xədicə İsmayıl və Qənimət Zahid vasitəsilə və "Human Rights Watch" xəttilə "The Guardian"a anonim məktub göndərib, onun müqabilində xüsusi qonorar alıb və bunu da İskəndərin "zirvəsini" dağıtmağa yönəldib? Yaxud Ə.Kərimli haradan bilərdi ki, vaxtilə ona pul xərcləyənlər indi də İ.Həmidovu ortaya ataraq, ona görüm-baxım ediblər? Hər halda, tezliklə hər şey bəlli olacaq.***

***P.S.S. Onu da deyim ki, bəzi məlumatlara görə, Ə.Kərimli əlində olan qrant pullarını trollarına maaş kimi ödəyəcəkmiş, ancaq ödəməyib. Hətta trollar yeni il bayramlarını şampansız və "vzrıvpaketsiz" keçiriblər. Yəqin ona görədir ki, son vaxtlar AXCP sədrinin sosial şəbəkələrdəki haray-şivənləri az da olsa, azalıb...***

# "Siyasi mühacir" adı ilə siyasi dəllallıq edənlər

*Müxalifətin "mühacir biznesi": onu kim başlayıb?*

**Artıq 25 ildən çoxdur ki, "siyasi mühacir" dəllalları şəxsi ambisiyaları naminə bütün ali dəyərləri ayaqlar altına ataraq satıldılar, öz xislətlərinə sadiq qalaraq dağıdıcı və qeyri-konstruktiv əməllərindən əl çəkmirlər.**



Mayası xəyanətlə, satqınlıqla, pozuculuqla yoğrulmuş bu siyasətbazlar, onların beş-üç nəfər əlaltıları, trolları sosial şəbəkələrdə saxta profillərlə dövlətimizə, dövlətçiliyimizə, ayrı-ayrı şəxslərə şər-böhtan, təhqir yağdırmaqla bunu da, özlərini ifşa etməklə yanaşı, erməni dəyirmanına su tökdüklərini və bu gün anti-Azərbaycan dairələrin bir nömrəli qulluqçusu olduqlarını açıq-aşkar ortaya qoyurlar.

Öz şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri C.Həsənli kimi siyasət dəllalları bütün mənəvi və əxlaqi dəyərləri tapdalayaraq, Avropanın müxtəlif ölkələrində məskunlaşmış, məhdud siyasi təfəkkürlü, dar dünyagörüşlü, ölkəmizdə və dünyada baş verən ictimai-siyasi prosesləri düzgün təhlil edə bilməyən bəzi kəmsavad gəncləri tora salaraq, öz məkrli məqsədlərinə alət etməkdən belə çəkinmirlər.

Lakin cəmiyyətimiz belə düşmən qüvvələrin, antimilli ünsürlərin, Vətən əxlaqını itirənlərin məkrli niyyətlərinə, oynadıqları oyunun hər detalına və mexanikasına yaxşı bələd olduğundan onların məkrli planlarının pozulmasına böyük dəstək verib. Milli maraq və mənafeləri erməni lobbisinin nüfuz dairəsində olan bəzi beynəlxalq təşkilatların çirkli pullarından ayrılan tulapayına dəyişən əli kərimlilər, cəmil həsənlilər, ilqar məmmədovlar, vidadi isgəndərlilər, qurban məmmədovlar, orduxan teymurxanlar yenə də millət, Vətən, Qarabağ kimi məfhumlardan çox-çox uzaqda dayanaraq, dünya erməniliyinin və ermənipərəst dairələrin ocağına odun daşıyaraq, onu görükləməkdən əl çəkmirlər.

## "Siyasi mühacir" qiyafəli əxlaqsız qrant dəllalları

Və bu gün də mənəviyyatlarının erməni lobbisinin nüfuz dairəsində olan bəzi beynəlxalq təşkilatların çirkli pullarından ayrılan tulapayına dəyişən əli kərimlilər, cəmil həsənlilər, ilqar məmmədovlar, vidadi isgəndərlilər, qurban məmmədovlar, orduxan teymurxanlar yenə də qrant üstündə qırğına çıxan "siyasi mühacirlər" bir- birlərini ifşa etməkdə davam edirlər. Pul məsələsində razılığa gələ bilməyən bu antimilli ünsürlər indi bir-birlərini siyasi dəllallıqda ittiham etməkdədirlər. Avropada yaşayan və özlərini "siyasi mühacirlər" adlandıran bu əxlaqsızlar kor-kar olmaqla yanaşı, mənəviyyat deyilən amildən də uzaqdırlar. Əgər belə olmasaydı, qrant üstündə bir-birilərini qurşaqdan aşağı o ki var söyüş "yağışına" tutmazdılar. Elə götürək Tural Sadıqlı ilə Məhəmməd Mirzəlinin pul davasını. Məhəmməd Mirzəlinin Tural Sadıqlını qrantları təkbaşına mənimsəməkdə ittiham etməsinin ardından, Tural köhnə "dostunu" siyasi dəllallıqda ittiham edib. Bildirib ki, Məhəmməd satqın, ikiüzlü tərbiyəsizdir və özünə saxta siyasi tarixçə formalaşdırıb. Tural deyib ki, Məhəmməd siyasi sığınacaq almaq üçün dövlət əleyhinə çıxışlar edib, fəallıq göstəririmiş. Sığınacağı aldıqdan sonra isə bir qədər sakitləşib. Sonra ailəsini də Avropaya aparmaq üçün yenidən fəallaşıb və anasını da yanına gətirməyə nail olub. T.Sadıqlı daha sonra M.Mirzəlini savadsız və cahil adam adlandırıb. O, qeyd edib ki, Məhəmmədin danışığından da bilinir ki, onun heç bir savadı və dünyagörüşü yoxdur. "Yalnız söyüş söyməklə nəyəsə nail olmaq istəyirdi, hamı da bizi qınayırdı ki, niyə bu adama efir verirsiz. Biz, sadəcə, ona dəstək olmaq istədik, o da belə etdi". Baxın, mən deyəndə ki, xalqına, dövlətinə, Vətənimizin layiqli övladlarına qarşı böhtan atan, Vətənini satanlar əxlaqsızdılar, mənəviyyatsızdılar, Aslan İsmayılov kimi, satqınların özü kimiləri başına toplayaraq tərbiyəsizlik etmələri heç də təəccüb doğurmur. Baxın, bu gün bu sözləri səviyyənizdə olan T.Sadıqlı və M.Mirzəli özünüzə qaytarır.

Göründüyü kimi, bütün bunlar bir daha "siyasi mühacirlər"in həm səviyyələrini, həm də əsl niyyətlərini aydın göstərir. Bax, budur əxlaqsızlıq və tərbiyəsizlik. Çünki bu əxlaqsız və tərbiyəsizlər idarə olunanlardır. Və bu bədbəxtlər anlamırlar ki, artıq onların xəyallarının üstünü toz çoxdan basıb və bu çirkabın içində eşələnə-eşələnə qalıblar.

**Rəfiqə HÜSEYNOVA**

# Avtovağzallarda gücləndirilmiş iş rejiminin vaxtı uzadılıb

Avtovağzallarda gücləndirilmiş iş rejiminin vaxtı uzadılıb. Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən bildirilib ki, regionlarda həftənin sonuna qədər istirahətini davam etdirən sərnişinlər üçün Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) respublikanın ümumilikdə 60 avtovağzal və avtostansiya şəbəkəsində gücləndirilmiş iş rejiminin müddətini yanvarın 5-nə kimi uzadıb. DANX sərnişinlərdən xahiş edir ki, biletləri avtovağzalların kassalarından əldə etsinlər.




# "Paşinyan Ermənistanı gərginlik quyusuna soxub"



"Ümumiyyətlə bu gün Paşinyan təkcə özünü deyil, Ermənistanı da gərginlik quyusuna soxub. İşğalçı ölkənin quyudan çıxma ehtimalı da çox aşağıdır". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Politoloqun sözlərinə görə, həm Paşinyanın yürütdüyü sərt siyasət, həm də Paşinyanın Rusiyaya qarşı yürütdüyü siyasət, eyni zamanda işğalçı siyasət yürütməsi gərgin vəziyyətdə olan ölkəni daha da gərginləşdirib: "Bundan başqa nəzərə alsaq ki, Ermənistana qaz satışında hər min kubmetrində 15 dollar artması işğalçı ölkə üçün çox böyük bir məbləğdir. Yeni hadisələrin gedişi göstərir ki, Paşinyanın yarıtmaz siyasəti tezliklə əks mövqe ilə özünü bildirəcək. Yeni Ermənistan həm bölgədə təklənib, həm də Azərbaycanın yürütdüyü xarici siyasət nəticəsində kifayət qədər daxili gərginlik yaranıb.

Nəzərə alsaq ki, Ermənistanda baş verən hadisələrdə də məhz Azərbaycanın böyük siyasi rolu var. Bütün bunların hamısı göstərir ki, Ermənistan-Rusiya münasibətlərində Paşinyan nə qədər çalışsa da yaxşılaşması ehtimalı çox aşağıdır. Baxmayaraq ki, bunlar uzun müddətdir tərəfdaşdırlar, əməkdaşdırlar və hər zaman Ermənistan Rusiyanın vassalı olub. Hadisələrin gedişi göstərir ki, may-iyun ayında Ermənistanda daxili gərginlik artıq qarşıdurmaya keçə bilər və növbəti hakimiyyət dəyişikliyi gözlənilir. Amma bütün hallarda Rusiya ilə Ermənistanın münasibətlərinin yaxşılaşacağı ehtimalı çox aşağıdır. Bir sözlə, gərginlik daha da artacaq".

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV:

# "XXI əsr barışıq əsri, sülh əsri olmalıdır"

***Həm beynəlxalq, həm də dövlətdaxili münasibətlər üçün insan hüquqlarının, pozitiv əhəmiyyəti "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin Preambulunda da qeyd edilir: "Bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğu..." nəzərə alınır.***

XXI əsrin ikinci onilliyinin sonuna doğru planetin müxtəlif regionlarında baş verən hadisələr, bir daha göstərir ki, bəşəriyyət hələ də silahlı münaqişələr və müharibə təhlükəsindən qurtula bilməmişdir. Son 50 il ərzində insan hüquqlarının ciddi pozuntularının əksəriyyəti beynəlxalq silahlı münaqişələr gedişində deyil, ayrı-ayrı dövlətlərin daxilində baş vermişdir. XX əsrin sonuna doğru əhalinin böyük miqrasiyası bəşər tarixinin danılmaz faktı kimi təzahür etdi. Məsələn, təbii fəlakətlər və ya silahlı münaqişələr nəticəsində, bütün dünyada miqrasiya etmiş vətəndaşların sayı 50 milyon nəfərdən artıq olmuşdur.



Dünyada milyonlarla insan iqtisadi və sosial səbəblər üzündən miqrasiya etmək məcburiyyətində qalır. Təkcə miqrasiya nəticəsində, bu gün praktiki olaraq, əksər ölkələr çoxmillətli, polikonfessional və poliməDəniyyətli dövlətə çevrilmişdir. Elə buna görə də, dünyanın bir çox dövlətlərində sosial gərginlik nəzərəçarpacaq dərəcədə artmışdır və ən xoşagəlməz cəhət ondan ibarətdir ki, bu proses hələ də davam etməkdədir.

Belə mürəkkəb və gərgin şəraitdə hər bir insanın hüquqlarının tanınması və onlara hörmət edilməsi münaqişələrin zorakılıqla həll edilməsinin, silahlı toqquşmaların qarşısının alınmasının zəminidir. İnsan hüquqları kimi ümumbəşəri dəyərlərin bu istiqamətdə rolu alternativə malik deyil, çünki bilavasitə, insan və şəxsiyyət amili bəşəriyyət üçün böyük təhlükə yarada bilən və bəzən real olaraq yaradan hərbi münaqişələrin qarşısında tab gətirməyə qadirdir. Artıq qeyd etmişik ki, bu gün də insandan qiymətli ikinci bir varlıq yoxdur. İnsana və onun hüquqlarına hörmət dünya birliyinə daxil olan və olmayan hər bir dövlətin prioritet vəzifəsi, beynəlxalq öhdəliklərindən biri olmalıdır.

Ulu Öndər Heydər Əliyev:
**"XXI əsr barış əsri, sülh əsri olmalıdır. Bütün münaqişələr, müharibələr aradan götürülməlidir. Artıq dünya sülh yolu ilə, tərəqqi yolu ilə getməlidir"**

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqaviləni imzalamaqla müharibənin, müvəqqəti də olsa, dayandırılmasına və regionda sabitliyin yaranmasına nail olmuşdur. Bu, həm dövlətimizin sülh arzusunun ifadəsi, həm də həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan dövləti beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması yolunda ardıcıl tədbirlər görülmüşdür. Ümummilli Lider tolerantlıq və dünyəvilik istiqamətində millilliyi Qafqazda sülhü qoruyubsaxlamağı başlıca amil hesab edərək demişdir: "Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq va tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq". Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının Preambula hissəsində "ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək "Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdu. Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan dövlətinin hər zaman sülhsevər siyasət yürüdəcəyini bəyan edərək demişdir: "Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün və sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir. Bu zərurət, həm də onunla bağlıdır ki, qonşu Ermənistanın Azarbaycana qarşı hərbi təcavüzü və əsassız ərazi iddiaları müstəqil dövlətimiz və xalqımız üçün böyük problemlər yaratmışdır. Ərazimizin 20 faizi işğal olunmuş, on minlərlə insan öldürülmüş və yaralanmış, yüzlərlə qadın, uşaq və qoca əsir və yaxud girov götürülmüş, 1 milyondan çox insan tarixi-etnik torpağında qaçqın və məcburi köçkünə çevrilmişdir. Təcavüz nəticəsində xalqımızın böyük mənəvi və maddi itkilərə məruz qalmasına baxmayaraq, Azərbaycan Respublikası daxili və xarici siyasətində demokratiya və müstəqil dövlətçilik prinsiplərinə, eyni zamanda, beynəlxalq hüquqi normalara daim sadiqlik nümayiş etdirir. Biz bu yolda xalqımızın sülhsevərlik, humanizm və dözümlülük kimi yüksək mənəvi dəyərlərinə arxalanırıq".

Ümummilli Lider Heydər Əliyevin sülhün və əmin-amanlığın əldə olunması istiqamətindəki əvəzsiz xidmətləri bütün dünya xalqları tərəfindən yüksək qiymətləndirilmişdir. Dahi şəxsiyyətin 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi faktı bunun ən gözəl nümunəsidir. Ulu Öndərin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Təsadüfi deyildir ki, Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan Azərbaycan dövləti ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür. "Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır", - deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

2004-cü il noyabrın 11-də Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə BMT Baş Məclisinə təqdim olundu. Həmin məruzənin məntiqi nəticəsi olaraq, 2006-cı il sentyabrın 7-də BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 285 saylı qətnaməni qəbul etdi. Bunun ardınca özünün 62-ci sessiyasında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətrafındakı silahlı münaqişənin beynəlxalq sülhə təhlükə törətdiyindən ciddi narahatlıq keçirən BMT Baş Məclisi Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, bütün erməni silahlı birləşmələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən ''Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət"ə dair 2008-ci il 14 mart tarixli 244 saylı qətnamə qəbul etdi. 21 Sentyabr - Beynəlxalq Sülh Günü, dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da geniş qeyd olunur. Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz və inkişaf etməkdə olan müdafiə sənayemiz mövcuddur. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə sübuta yetirmiş və sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 4 yanvar

## Çexiyada həkim reseptləri xəstənin telefonuna göndəriləcək



2019-cu ildən başlayaraq Çexiyada hər bir həkim xəstənin istəyinə görə reseptləri elektron formada yazmağa borcludur.

Belə ki, elektron reseptin baza forması kimi həkimin elektron imzasının kodunun götürülməsi təklif olunur. Bununla yanaşı, reseptlərin sms-bildirişlər, pdf-fayl əlavə olunan elektron poçt ünvanı, mobil telefon və ya internet əlavəsi vasitəsilə göndərilməsi də mümkündür. Çexiyada bu təcrübənin tətbiqinə ötən ildən başlanılıb. Belə ki, 2018-ci ildə həkimlər pasiyentlərə 58 milyondan çox elektron resept yazıblar.

## Qodin "Atletiko" ilə müqaviləni yeniləməyəcək



Madrid "Atletiko"sunun kapitanı Dieqo Qodin klubla müqaviləni yeniləməkdən imtina edib və qış transferində komandanı tərk etməyi planlaşdırır. "Marca" nəşrinin yazdığına görə, 32 yaşlı uruqvaylı futbolçunun "Atletiko Madrid" klubu ilə müqaviləsi 2019-cu ilin yayında başa çatır. Oyunçunu heyətdə saxlamaq üçün Madrid klubunun rəhbərliyi maaşını artırmağı vəd etsə də, "Atletiko Madrid"in maliyyə problemləri buna imkan verməyib. Cari mövsümdə Qodin Madrid təmsilçisinin heyətində 18 oyuna iki qol vurub və bir məhsuldar ötürmənin müəllifi olub.

## Balıq yemək uşaqlarda intellekti artırır?



Alim və diyetoloqlar uşaqların qida rasionuna balığın daxil edilməsini məsləhət görürlər. Rusiyanın KİV-lərinin yazdığına görə, tədqiqatlar nəticəsində ən azı həftədə bir dəfə balıq yeyən uşaqların daha yüksək intellekt əmsalına malik olduğu müəyyən edilib. Bu göstərici onlarda balıq yeməyən uşaqlardan 48 bal yüksəkdir. Həmçinin qida rasionunda balıq olan uşaqların yuxusu daha möhkəm olur. Onlar nadir hallarda gecələr oyanırlar. Həmin uşaqları yatızdırmaq da asan olur. Həftədə ən azı bir dəfə balıq yemək intellekt əmsalına 1,6 bal gətirirsə, ayda iki dəfə balıq yemək həmin göstəriciyə 3,31 bal əlavə edir.

Mütəxəssislər balığı uşaqların qida rasionuna daha erkən yaşda daxil etməyi məsləhət görürlər. Balıq sümüksüzdürsə, onu on aylıq uşağa da vermək olar. 2 yaşında uşağın qida rasionunda isə balıq mütləq olmalıdır.

## Xərçəng xəstəliyinin 3D virtual reallıq modeli hazırlanıb

İngilis elm adamları xərçəng xəstəliyinin üçölçülü virtual reallıq modelini hazırlayıblar. Böyük Britaniyanın Kembric Xərçəng Tədqiqatları İnstitutunda beynəlxalq araşdırma çərçivəsində hazırlanan model vasitəsilə xəstədən alınan şiş nümunəsi ətraflı şəkildə araşdırılacaq və hər bir hüceyrənin xəritəsini çıxartmaq mümkün olacaq. Belə ki, model vasitəsilə şiş nümunələri genişləndiriləcək və hüceyrələr ətraflı öyrənilə biləcək.

Modelin xərçəng haqqında daha çox məlumat əldə etməyə və yeni müalicə üsullarının araşdırılmasına kömək edəcəyi deyilir.

## Azərbaycan Gimnastika Federasiyası bu il bir neçə nüfuzlu yarışa ev sahibliyi edəcək




Azərbaycan Gimnastika Federasiyası (AGF) 2019-cu ildə gimnastika növləri üzrə bir neçə irimiqyaslı yarışa ev sahibliyi edəcək. Cari il federasiya yenidən zəngin iş planı ilə çalışaraq 2019-cu ilə fevralın 16-17-də batut gimnastikası üzrə dünya kuboku ilə start verəcək. Bir ay sonra - martın 14-17-də meydança idman gimnastlarının olacaq. Belə ki, ölkəmizdə dördüncü dəfə idman gimnastikası üzrə dünya kuboku təşkil olunacaq. Aprel və may ayları isə bədii gimnastların çıxışları ilə əlamətdar olacaq. Aprelin 26-28-də bu növ üzrə dünya kuboku, mayın 17-19-da isə Avropa çempionatı keçiriləcək.

Cari il AGF ilk dəfə olaraq, gimnastikanın iki növü üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Belə ki, bədii gimnastlardan sonra mayın 24-26-da qitənin ən güclü aerobika gimnastları paytaxtımızda toplaşacaqlar.

İyulun 20-28-də ölkəmizdə ilk dəfə olaraq, Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu festival çərçivəsində baş tutacaq idman gimnastikası üzrə yarışlar da məhz Milli Gimnastika Arenasında keçiriləcək.

İlin sonuncu yarışı bədii gimnastika üzrə dünya çempionatıdır. Bakı 14 ildən sonra yenidən dünya birinciliyinə ev sahibliyi edərək, ən güclülərin müəyyənləşdiyi mübarizənin şahidi olacaq. Bakıda keçiriləcək hər üç dünya kuboku, eləcə də dünya çempionatının əsas özəlliklərindən biri isə məhz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıması olacaq.

Gimnastika növləri üzrə bütün beynəlxalq yarışların Milli Gimnastika Arenasında keçirilməsi gimnastika sevərləri daha da sevindirəcək. Belə ki, onlar sərfəli şərtlərlə "Mövsümi Bilet" əldə edərək bütün beynəlxalq gimnastika yarışlarını özlərinə məxsus oturacaqlardan izləyə biləcəklər.

## "Arsenal" "Real"ın qapıçısını transfer edib



Londonun "Arsenal" klubu Madrid "Real"ının kosta-rikalı qapıçısı Keylor Navası transfer edib. "DailyStar" qəzeti xəbər verir ki, London təmsilçisi 32 yaşlı qapıçısı üçün 14 milyon funt sterlinq ödəyib.

Kosta-rikalı futbolçunun cari mövsümün sonunda Madrid təmsilçisi ilə müqaviləsinin müddəti başa çatır. "Real Madrid" yay transfer pəncərəsində "Çelsi"nin belçikalı qapıçısı Tibo Kurtuanı transfer etdiyindən Navasın ilk 11-likdə yer alması sual altında qaldığı üçün o, "Arsenal"ın təklifi ilə razılaşıb.

## "Beşiktaş" Burak Yılmazı transfer edib



"Beşiktaş" klubu Türkiyə milli komandasının və "Trabzonspor"un hücumçusu Burak Yılmazı transfer edib. Türkiyə KİV-lərinin yaydığı məlumatda deyilir ki, 33 yaşlı futbolçu ilə 2,5 illik müqavilə imzalanıb. Cari mövsümdə "Trabzonspor"un heyətində 7 oyunda 5 qol vuran hücumçu yeni klubunda ildə 2,5 milyon avro qazanacaq.

B.Yılmaz son dəfə İstanbul komandasına 2006-cı ildə "Antalyaspor"dan keçib. Lakin o, 2007-2008-ci il mövsümünün ortasında "Manisaspor"a icarəyə verilib. Həmin il müqavilə ilə məxsus olduğu "Beşiktaş"dan ayrılan B.Yılmaz sonralar Türkiyənin "Fənərbağça", "Qalatasaray" və "Trabzonspor" komandalarında futbolçu karyerasını davam etdirib. Təcrübəli futbolçu bir müddət Çinin "Beytszin Qoan" klubunun da formasını geyinib. B.Yılmaz Türkiyə millisinin heyətində 51 oyunda 23 dəfə fərqlənib. Qeyd edək ki, "Beşiktaş" komandası Türkiyə Superliqasında turnir cədvəlinin yeddinci pilləsində qərarlaşıb.

## "Çelsi"dən 64 milyon avroluq transfer



"Borussiya" (Dortmund) klubunun amerikalı yarımmüdafiəçisi Kristian Pilişiç Londonun "Çelsi" klubuna keçib. Almaniya klubunun məlumatında deyilir ki, transfer 64 milyon avroya başa gəlib. İyirmi yaşlı Pulişiç mövsümün sonuna qədər Dortmund klubunda icarə hüququnda oynayacaq.

"Borussiya"nın heyətində 2016-cı ildən təmsil olunan Pulişiç 115 matçda iştirak edib, 15 qol vurub. O, 2016/17-ci illər mövsümündə Almaniya Kubokunun sahibidir. "France Football" jurnalının versiyasına görə, Pulişiç 2018-ci ildə 21 yaşına qədər futbolçular arasında mövsümün ən yaxşı oyunçusu adı uğrunda səsvermədə ikinci yeri tutub. Bu səsvermədə fransız Kilian Mbappe qalib gəlib.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin RTM ixtisası üzrə II kurs tələbəsi Həsənova Həmidə Hafiz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Aslanova Həcər Məqsəd qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**